

## Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 30 iyun 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU "Round University Ranking" reytinqində 137 pillə irəliləyərək, Azərbaycanda lider mövqeyə yüksəlib

→Səh.2

BDU ilə Ankara Hacı Bayram Vəli Universiteti arasında anlaşma memorandumu imzalanıb

→Səh.3

BDU rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti "QS EduData Summit-2025" tədbirində iştirak edir

→Səh.3

BDU-da Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş müsabiqə - "EkoGün-2025"

→Səh.3

BDU dünya universitetləri reytinqində TOP-700-lükdə yer alaraq, Cənubi Qafqaz üzrə liderdir

→Səh.7

TKTA BDU-da ali təhsil müəssisələri üçün "Keyfiyyətə doğru addım: Akkreditasiya prosesinə hazırlıq" adlı seminar keçirir

→Səh.8



BDU ilə Corc Vaşinqton Universiteti arasında əməkdaşlıq imkanları müzakirə olunub

→Səh.2



BDU və Türkiyənin Bingöl Universiteti arasında anlaşma memorandumu imzalanıb

→Səh.2



BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri imtahan sessiyasını izləyiblər

→Səh.4



BDU-da Milli Qurtuluş Günü qeyd olunub

→Səh.5



BDU Qlobal Dayanıqlı İnkişaf Konqresində öz stendi ilə təmsil olunur

→Səh.6




## Milli Gimnastika Arenasında BDU-nun möhtəşəm Məzun Günü

***İyunun 25-də Milli Gimnastika Arenasında BDU-nun Məzun Günü keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi anılıb.

Sonra BDU haqqında videoçarx nümayiş olunub.

Tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara uğurlar arzulayıb: "Bu gün qədim tarixi və zəngin ənənələri olan BDU-nun həyatında unudulmaz gündür. Ali təhsillərini uğurla başa vurmuş 6000-dən çox tələbəmiz Universitetdən məzun olur. Siz Azərbaycanın yeni reallığa qədəm qoyduğu, ölkə həyatının hər bir sahəsində davamlı inkişafın, elmi-texniki tərəqqinin vüsət aldığı bir dövrdə məzun olursunuz. Tələbəlik illəriniz xalqımız üçün taleyüklü hadisələrlə zəngin bir dövrə təsadüf edir. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli Ordumuzun böyük Zəfərə imza atması ilə ölkəmizin ərazi bütövlüyü, heç bir gün çəkməyən lokal antiterror əməliyyatı ilə dövlət suverenliyimiz bərpa olundu. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanıldı. Müstəqil dövlətimizin dünyanın siyasi arenasında mövqeyi möhkəmləndi. Bu il qürurla beşinci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərə qanından və canından keçərək imza Vətən oğullarının ruhu qarşısında baş əyirik. Bu gün ali təhsilini başa vurmuş gənclərimiz Vətənimizin hər bir guşəsində, o cümlədən doğma Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərində fəal iştirak edirlər. Bu işlərə həvəslə qoşulan Azərbaycan gəncləri arasında Universitetimizin məzunları da az deyil. Biz onlarla fəxr edir, əzəli torpaqlarımıza yeni nəfəs verən quruculuq işlərində hər birinə uğurlar arzulayırıq. Unutmayın ki, siz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzun olduğu Bakı Dövlət Universitetinin yetirmələrisiniz. "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" deyərək qocaman təhsil ocağımıza yüksək dəyər vermiş, onu "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırmış dahi şəxsiyyətin bu kəlamlarını heç vaxt unutmayın. Siz ali təhsilinizi ölkəmiz üçün əlamətdar bir təqvim ilində başa vurursunuz – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Hər iki anlayış Azərbaycanın müasir dövlət quruculuğunda ayrılmaz dəyərlər kimi qəbul olunur və xalqımızın taleyində mühüm əhəmiyyət kəsb edir. Hüquqi dövlət quruculuğuna töhfə verən, dövlət müstəqilliyinin qorunması və möhkəmlənməsində fəal iştirak edən Azərbaycan gəncləri sırasında BDU məzunlarının da adları olacaq".

Rektor bildirib ki, 106 il əvvəl 2 fakültə, 44 nəfərlik professor-müəllim və 1094 nəfərlik tələbə heyəti ilə fəaliyyətə başlamış BDU-da hazırda 16 fakültədə 1500 nəfərlik professor-müəllim heyəti çalışır, 25000-dən çox tələbə təhsil alır. Universitetdə 120 kafedra, 2 elmi-tədqiqat institutu, 6 elmi-tədqiqat mərkəzi, 5 muzey, Qazax filialı, İqtisadiyyat və Humanitar Kollec və "Gənc istedadlar" liseyi fəaliyyət göstərir.

*(ardı 16-sı səhifədə)*

## BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Son zəng"

→Səh.4

# BDU ilə Corc Vaşinqton Universiteti arasında əməkdaşlıq imkanları müzakirə olunub

***İyunun 2-də BDU-da ABŞ-nin nüfuzlu ali təhsil müəssisələrindən biri olan Corc Vaşinqton Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov, Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı üzrə Məktəbinin dekanı Michael Feuer və Universitetin nümayəndəsi Sevinc Məmmədova iştirak ediblər.




Tərəflər görüş zamanı təhsil və elm sahəsində əməkdaşlıq perspektivlərini, birgə elmi tədqiqat layihələrinin icrasını, tələbə və müəllim mübadiləsini, eləcə də doktorantura proqramları çərçivəsində ortaq fəaliyyət imkanlarını müzakirə ediblər. Görüş zamanı universitetlər arasında ikili diplom proqramlarının təşkili məsələsi də diqqət mərkəzində olub.

Rektor Elçin Babayev Corc Vaşinqton Universiteti ilə əməkdaşlığın BDU-nun beynəlxalq əlaqələrinin genişlənməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, iki universitet arasında mövcud olan elmi potensialın birgə layihələrə töhfə verəcəyinə inandığını bildirib.

# BDU ilə Ankara Hacı Bayram Vəli Universiteti arasında anlaşma memorandumu imzalanıb

***İyunun 3-də Bakı Dövlət Universiteti ilə Türkiyə Respublikasının Ankara Hacı Bayram Vəli Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Ankara Hacı Bayram Vəli Universitetinin rektoru Mehmet Naci Bostancı imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramlar, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 2018-ci ildə qoyulmuş Ankara Hacı Bayram Vəli Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. Universitet "QS Dünya Universitetləri Reytinqi"ndə 901-950-ci pillələrdə qərarlaşır.

# BDU "Times Higher Education" reytinqində TOP-600-də qərarlaşıb

*Məlumat üçün bildirək ki, "THE Impact Rankings" reytinq siyahısı THE tərəfindən hazırlanmış və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri əsasında dünyanın ali təhsil müəssisələrinin sosial, iqtisadi və ekoloji sahələrdəki töhfəsini ölçən qlobal reytinq sistemidir.*

***BDU dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) agentliyinin açıqladığı "Impact Rankings 2025" nəticələrinə əsasən qlobal miqyasda ilk 600 universitet arasında qərarlaşaraq 401–600 diapazonunda yer alıb. Bu, Universitetin ötənilki 1001–1500 diapazonundakı mövqeyi ilə müqayisədə əhəmiyyətli yüksəlişini nümayiş etdirir.***




Dünyanın nüfuzlu 2318 ali təhsil müəssisəsinin yer ala bildiyi reytinqdə BDU bu il 15 Dayanıqlı İnkişaf Məqsədi (DİM) üzrə qərarlaşaraq, ötənilki 9 DİM göstəricisi ilə müqayisədə ciddi irəliləyişə nail olub.

BDU-nun ümumi nəticə göstəricisi 35% artaraq, 53.2-dən 71.8-ə yüksəlib, bu isə Universitetin dayanıqlı inkişaf sahəsində atdığı addımların və həyata keçirdiyi islahatların nəticəsidir.

BDU 4 Dayanıqlı İnkişaf Məqsədi "Yoxsulluğa son" (DİM 1), "Keyfiyyətli təhsil" (DİM 4), "Gender bərabərliyi" (DİM 5) və "Bərabərsizliyin azaldılması" (DİM 10) üzrə qlobal miqyasda TOP-100 nüfuzlu universitet arasında yer alıb. Bundan əlavə, Universitet "Torpaq ekosisteminin mühafizəsi" (DİM 15) və "Sülh, ədalət və səmərəli institutlar" (DİM 16) üzrə 101–200 aralığında qərarlaşıb. Habelə, "Aclığa son" (DİM 2), "Təmiz su və sanitariya" (DİM 6), "Layiqli əmək və iqtisadi artım" (DİM 8), "Dəniz ekosisteminin mühafizəsi" (DİM 14) üzrə 201–300 diapazonunda mövqe tutub.

Məlumat üçün bildirək ki, "THE Impact Rankings" reytinq siyahısı THE tərəfindən hazırlanmış və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri əsasında dünyanın ali təhsil müəssisələrinin sosial, iqtisadi və ekoloji sahələrdəki töhfəsini ölçən qlobal reytinq sistemidir. Bu reytinq universitetlərin tədqiqat fəaliyyəti, idarəetmə siyasətləri, sosial təsiri və ictimai öhdəliklərini obyektiv meyarlarla qiymətləndirməklə onların dayanıqlı inkişafa verdiyi dəstəyi əks etdirir.

Bu nailiyyət BDU-nun qlobal səviyyədə artan nüfuzunu və Dayanıqlı İnkişaf Məqsədlərinə sadiqliyini nümayiş etdirir. Reytinqdəki bu ciddi irəliləyiş Universitetin sosial məsuliyyət, ətraf mühitin mühafizəsi, inklüziv təhsil və bərabər imkanların təmin olunması sahələrində göstərdiyi sistemli və nəticəyönümlü fəaliyyətin beynəlxalq səviyyədə tanınmasının bariz göstəricisidir. Bu, eyni zamanda, BDU-nun beynəlxalq əməkdaşlıqlar üçün daha cəlbedici tərəfdaş olmasına və qlobal akademik arenada rəqabət qabiliyyətliliyinin artmasına töhfə verir.

# BDU "Round University Ranking" reytinqində 137 pillə irəliləyərək, Azərbaycanda lider mövqeyə yüksəlib

***İyunun 2-də BDU 2025-ci il üçün açıqlanan "Round University Ranking" (RUR) beynəlxalq reytinq cədvəlində 137 pillə irəliləyərək, Azərbaycanın ali təhsil müəssisələri arasında lider mövqeyə sahib olub. BDU bu nüfuzlu reytinqdə 825-ci mövqedə qərarlaşaraq, ötənilki 962-ci göstərici ilə müqayisədə ciddi irəliləyiş nümayiş etdirib.***

RUR reytinqi dünya üzrə ali təhsil müəssisələrinin fəaliyyətini 20 göstərici əsasında dörd strateji sahə – tədris (40%), tədqiqat (40%), beynəlxalq müxtəliflik (10%) və maliyyə dayanıqlığı (10%) üzrə qiymətləndirir.

Qeyd edək ki, RUR reytinqinin məlumatları nüfuzlu "Clarivate Analytics" şirkətinin "Global Institutional Profiles Project" platforması vasitəsilə toplanır və "Web of Science Core Collection" bazasındakı bibliometrik göstəricilərə əsaslanır. Tədris və tədqiqat sahələrində reputasiya göstəriciləri isə hər il keçirilən Akademik Reputasiya Sorğusu əsasında müəyyənləşdirilir.

BDU-nun bu uğuru Universitetin son illərdə həyata keçirdiyi genişmiqyaslı islahatların, akademik potensialın inkişafı, elmi tədqiqatların stimullaşdırılması, beynəlxalq əlaqələrin gücləndirilməsi və maliyyə idarəetməsinin səmərəliliyinin bariz nəticəsidir.

# BDU və Türkiyənin Bingöl Universiteti arasında anlaşma memorandumu imzalanıb



***İyunun 11-də BDU və Türkiyənin Bingöl Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və Bingöl Universitetinin rektoru Erdal Çelik imzalayıb.

Tədbirdə çıxış edən rektor Elçin Babayev həm təbiət-dəqiq, həm də humanitar elmlər sahələrində hər iki universitetin böyük potensiala malik olduğunu qeyd edib. O bildirib ki, imzalanan memorandum BDU və Bingöl Universitetinin tələbələri üçün yeni imkanlar açacaq, regionda təhsilin və elmin inkişafına mühüm töhfə verəcək. Xüsusilə biologiya, kimya, fizikanın müxtəlif istiqamətləri, arı xəstəlikləri, nanotexnologiyalar, iqtisadiyyat və qarşılıqlı maraq doğuran digər sahələrdə birgə elmi tədqiqatlar aparıla, ortaq elmi-tədqiqat laboratoriyası yaradıla bilər.

Bingöl Universitetinin rektoru Erdal Çelik BDU ilə uğurlu əməkdaşlığın Azərbaycan və Türkiyənin elmi inkişafında, beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssislər yetişdirilməsində mühüm önəm daşıdığını deyib.

Qeyd edək ki, memorandum çərçivəsində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili nəzərdə tutulur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

# BDU rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti "QS EduData Summit-2025" tədbirində iştirak edib

***BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti 2025-ci il 4–5 iyun tarixlərində Sinqapur Respublikasının paytaxtı Sinqapur şəhərində Böyük Britaniyanın ali təhsil xidmətləri sahəsində ixtisaslaşmış "Quacquarelli Symonds" (QS) Agentliyinin təşkilatçılığı ilə keçirilən "EduData Summit-2025" beynəlxalq tədbirində iştirak edib.***

Sammit ali təhsil sahəsində məlumatların idarə olunması, böyük məlumatların analizi və təhsil analitikası üzrə dünyanın nüfuzlu tədbirlərindən biridir. Tədbir hər il dünyanın müxtəlif ölkələrindən universitet rəhbərlərini, strategiya üzrə mütəxəssisləri, informasiya texnologiyaları üzrə rəhbərləri, data analitiklərini və təhsil innovatorlarını bir araya gətirir.

Builki Sammitin əsas məqsədi məlumatların yalnız toplanılması və ölçülməsi ilə kifayətlənməyib, onların düzgün şəkildə analizi, digər sahələrlə əlaqələndirilməsi və gündəlik idarəetmədə effektiv istifadəsi yollarını müzakirə etməkdir. Tədbirdə təhsildə məlumat ekosisteminin yaradılması, performansın daha dərindən başa düşülməsi, ağıllı tələbə qəbulu strategiyaları və tədris prosesində yeni metodların tətbiqi əsas müzakirə mövzuları olub.

Sammit çərçivəsində "Ağıllı işə qəbul: səfər xəritəsini müəyyənləşdirmək üçün təyinatı anlamaq", "Performansı anlamaq" və "Tədris və öyrənmə üçün yeni üsullar" kimi sessiyaları keçirilib.

QS tərəfindən təşkil olunan bu nüfuzlu beynəlxalq tədbirdə iştirak BDU-nun məlumat əsaslı idarəetmə modelinin təkmilləşdirilməsi, beynəlxalq trendlərlə tanışlıq, qabaqcıl təcrübələrin öyrənilməsi və Universitetin dünya reytinqlərində mövqeyinin gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Sammitdən əldə ediləcək bilik və təcrübə, həmçinin beynəlxalq tərəfdaşlıq imkanları BDU-nun rəqəmsal transformasiya, keyfiyyətin artırılması və innovativ yanaşmaların tətbiqi strategiyasına töhfə verəcəkdir.

# Xeyirxahlıq, insanpərvərlik, bərabərlik bayramı

***İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Qurban bayramı Azərbaycanda dövlət səviyyəsində bayram edilir.***

Dini qurban kəsmə mərasimi İslamdan əvvəl də mövcud olub, lakin o vaxtlar günahdan təmizlənmək və sair üçün edilib. Hicrinin (Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsi) ikinci ilindən sonra qurban kəsmənin İslam aləmində başqa məqsədləri və səbəbləri yaranıb. Belə ki, dini qurban kəsmə İslam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələnib. Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranıb.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynayıb, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca tutulub. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş edib.

Uca Yaradan dua və niyyətlərinizi qəbul, xalqımıza, dövlətimizə daim sülh bəxş etsin!

# BDU-nun rektoru Elçin Babayev "EduData Summit - 2025" tədbiri çərçivəsində keçirilən sessiyada çıxış edib

***İyunun 5-də BDU-nun rektoru Elçin Babayev Böyük Britaniyanın ali təhsil xidmətləri sahəsində ixtisaslaşmış "Quacquarelli Symonds" (QS) Agentliyinin təşkilatçılığı ilə Sinqapur şəhərində keçirilən "EduData Summit - 2025" tədbirində "2030-cu ilin universiteti – müəssisəniz necə görünəcək?" mövzusunda keçirilən panel müzakirəsində iştirak edib.***

Sessiyada hazırda qlobal miqyasda ali təhsildə müşahidə olunan dəyişikliklər, bu dəyişikliklərin universitetlərin fəaliyyətinə təsiri, sənaye və texnologiya şirkətləri ilə yeni əməkdaşlıq modellərinin qurulması və süni intellektə əsaslanan rəqəmsal keçid mərhələsində verilənlərin transformasiya gücündən istifadə etmək üçün innovativ yanaşmaların mümkün etik tətbiqi imkanları mövzularında müzakirələr aparılıb. Rektor Elçin Babayev tədbirdə çıxış edərək BDU-nun bu keçid dövründə strateji mövqeyindən, hədəflərindən, bu istiqamətdə həyata keçirilən layihələrdən və yenilikçi təşəbbüslərdən bəhs edib.




Rektor çıxışında qeyd edib ki, BDU ənənəvi tədris modeli ilə yanaşı, sənaye, texnologiya şirkətləri və beynəlxalq akademik qurumlarla əməkdaşlığı genişləndirməklə tələbələrin müasir ehtiyaclarına cavab verən çevik və rəqəmsallaşmış yeni təhsil mühitinin formalaşdırılmasına çalışır. Bu istiqamətdə süni intellekt əsaslı rəqəmsallaşmanın roluna diqqət çəkərək universitetlərin yalnız bilik ötürən deyil, həm də innovasiya yönümlü insan kapitalını inkişaf etdirən və cəmiyyətin inkişafına töhfə verən institutlar kimi yenidən dizayn edilməsinin vacibliyini vurğulayıb. Həmçinin, BDU-da yaradılan Süni intellekt etikası kafedrasında süni intellektin dərin yan təsirləri ilə mübarizə yollarının araşdırılması, süni intellekt sistemlərinin məqsədyönlü inkişafı və tətbiqi məqsədləri barədə ətraflı məlumat verib.

Paneldə BDU-nun rektoru ilə yanaşı, "Open Story" şirkətinin təsisçisi Siok Siok Tan, "Reactor School"un baş direktoru Xairul Rusydi, "SoMin.ai" platformasının qurucusu Aleks Farseev və sessiyanın moderatoru, QS-in Strateji məzmun meneceri Laura Lightfinch də çıxış ediblər. Müzakirələr zamanı süni intellektin təhsildə rolu, qeyri-ənənəvi təhsil formatlarının yayılması və universitetlərin gələcəkdə hansı imkanlara və əməkdaşlıq modellərinə ehtiyac duyacağına dair məsələlər ön plana çıxıb. BDU-nun "EduData Summit - 2025" beynəlxalq platformasında fəal iştirakı Universitetin qlobal təhsil məkanında artan nüfuzunun və dəyişən reallıqlara uyğun strateji transformasiya istiqamətində uğurlu yol xəritəsinin göstəricisi kimi qiymətləndirilib.

# BDU-da Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş müsabiqə - "EkoGün-2025"

***İyunun 5-də Biologiya fakültəsinin "Bioteam" klubunun təşkilatçılığı ilə 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş "EkoGün-2025" adlı sərgi formatında müsabiqə keçirilib. Tədbirin məqsədi tələbələr arasında ekoloji maarifləndirməni təşviq etmək, təkrar emalın əhəmiyyətinə diqqət çəkmək və gənclərdə ekoloji məsuliyyət hissini gücləndirməkdir.***

Tədbirdə Biologiya fakültəsinin dekanı Afət Məmmədova, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Fizika fakültəsinin dekan müavini Vüsal Məmmədov, kafedra müdirləri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.



Sərgidə 20-dən çox əl işi nümayiş etdirilib. Bu işlərin hazırlanmasında əsasən təkrar emal edilə bilən materiallardan istifadə olunub. Rəsmlərin çoxu təbii boyalarla işlənib ki, bu da tədbirin ekoloji mahiyyətini daha da vurğulayıb və iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Yaradıcılıq sərbəstliyi təmin edilsə də, iştirakçılardan təqdim etdikləri işlərlə bağlı yazılı izah və istifadə olunan materialların siyahısını təqdim etmək tələb olunub. Münsiflər heyəti və iştirakçıların gizli səsvermesinin nəticələrinə əsasən, Biologiya fakültəsinin II kurs tələbələri Zeynəb Abdullayeva "Sakit okean, səssiz fırtına" adlı işi ilə I, Kənan Hüseynzadə "Canlanan batareya" adlı işinə görə II, Fizika fakültəsinin tələbələri Aişənur Mayılzadə, Günəş İbrahimli, Hüseyn Məmmədzadə və Səma Hüseynova "Spektrometr" adlı işləri ilə III yerə layiq görülüblər.

Tədbirdə çıxış edənlər Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM), xüsusilə 12-ci məqsəd olan məsuliyyətli istehlak və istehsal məsələsinə diqqət çəkiblər. Bildirilib ki, bu məqsədlərə çatmaq üçün yalnız istehsalçılar deyil, istehlakçılar da məsuliyyət daşıyır. Qida israfı, plastik tullantılar və qeyri-rasional istehlak vərdişləri günümüzdə ətraf mühit və cəmiyyət üçün ciddi problemlər yaradır. Buna görə də ekoloji düşüncənin formalaşdırılması və davranışların dəyişdirilməsi vacib hesab olunur.

"EkoGün-2025" tədbiri tələbələrə yaradıcılıqlarını nümayiş etdirmək imkanı yaratmaqla yanaşı, onları ekoloji məsuliyyətə, davamlı və yaşıl gələcək qurmaq üçün daha fəal mövqe tutmağa çağırıb.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində “Son zəng”

***İyunun 24-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyində “Son zəng” tədbiri keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev məzunları, müəllim və valideynləri təbrik edib. Rektor bildirib ki, “Gənc istedadlar” liseyi özünün tədris göstəriciləri ilə artıq brendə çevrilib. Təsadüfi deyil ki, "Gənc istedadlar" liseyi bu il Respublika Fənn Olimpiadaları üzrə qalib sayı baxımından ölkənin ən yaxşı təhsil müəssisələri sırasında ilk onluqda yer alır. O, liseyin məzunlarının yüksək nəticələr göstərərək ölkəmizin adını daim yüksəldəcəklərinə əminliyini bildirib: “Məzunlarımız həmişə fəxr edəcəklər ki, məhz BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin yetirməsidirlər. Bu, onların sonrakı




həyatında əhəmiyyətli rol oynayacaq”.

Bu il təhsil müəssisəsini 61 məzun bitirir. Onlardan 8-i xüsusi nümunəli nişana, 19-u fərqlənmə attestatına namizəddir. Ümumi orta təhsil səviyyəsini isə 66 nəfər bitirir. Onlardan 46 nəfəri fərqlənmə attestatı almağa namizəddir. Liseyin 3 şagirdi IX sinfin buraxılış imtahanlarında maksimal 300 bal toplayıb. Bu il liseyin şagirdləri Respublika Fənn Olimpiadalarında yüksək nəticə göstərərək, bir qızıl və bir gümüş olmaqla 7 medal qazanıblar. “Sabahın alimləri” XIV Respublika müsabiqəsində liseyşagirdlərinin bir layihəsi I, iki layihəsi II, bir layihəsi isə III yerə layiq görülüb.

Liseyin şagirdləri Yeniyetmələrin XXI Beynəlxalq Elm Olimpiadası, Beynəlxalq Kopernik Olimpiadası, Türk Dünyası Beynəlxalq Riyaziyyat Olimpiadası, Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadası, V Astronomiya Olimpiadası, digər beynəlxalq və yerli olimpiadalarda önəmli yerlər qazanıblar.

Tədbirdə tədrisdə fərqlənən, olimpiadalarda yer tutan şagirdlərə, liseyin qabaqcıl müəllimlərinə təşəkkürnamələr təqdim olunub.

Sinif rəhbərləri Zülfiyyə Muradova, Elvira Ömərova, Rəna Qasımova çıxışlarında məzunlara tezliklə tələbə adı qazanmağı və uğurları ilə ölkəmizin adını hər zaman ucaltmağı arzu ediblər.

Tədbir şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU-nun rektoru Qlobal Dayanıqlı İnkişaf Konqresinin panel müzakirəsində çıxış edib

***İyunun 18-də BDU-nun rektoru Elçin Babayev Türkiyənin İstanbul şəhərində nüfuzlu “Times Higher Education” (THE) reytinq təşkilatı və Türkiyə Ali Təhsil Şurası (YÖK) tərəfindən təşkil olunmuş Qlobal Dayanıqlı İnkişaf Konqresi çərçivəsində keçirilən panel müzakirəsində iştirak edib.***

“Azərbaycanın təcrübəsi: Universitetlər davamlı inkişaf irsini necə formalaşdırır?” (“Azerbaijan Showcase: How Universities are Shaping Their National Sustainability Legacy”) adlı panel müzakirəsində Azərbaycanın Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova moderator qismində çıxış edib. Paneldə BDU-nun rektoru ilə yanaşı, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov, Koç Universitetinin prezidenti Metin Sitti



və John Von Neumann Universitetinin Himayəçilər Şurasının rəhbəri Norbert Csizmadia da iştirak ediblər.

Panel zamanı Elçin Babayev Bakı Dövlət Universitetində BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) çərçivəsində həyata keçirilən fəaliyyətlər, elmi tədqiqatların bu istiqamətə yönəldilməsi, maarifləndirmə təşəbbüsləri, Universitetin daxili siyasətində dayanıqlılıq prinsiplərinin tətbiqi və beynəlxalq əməkdaşlıq imkanları barədə ətraflı məlumat verib.

Qeyd edək ki, bu panel müzakirəsi Azərbaycanın ali təhsil müəssisələrinin dayanıqlı inkişaf sahəsindəki rolu və töhfəsinin beynəlxalq səviyyədə nümayişi baxımından mühüm əhəmiyyət kəsb edir.

# BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri imtahan sessiyasını izləyiblər

***İyunun 12-də BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələrinin iştirakı ilə yaz semestrinin imtahan sessiyasının gedişatı izlənilib.***

Əvvəlcə BDU-nun yeni açılmış “Tələbə məkanı”nda İctimai Nəzarət Şurasının iclası keçirilib. BDU rektoru Şura üzvlərinə Universitetdə son zamanlar həyata keçirilən yeniliklər və sessiyanın gedişi ilə bağlı məlumat verib. O bildirib ki, BDU dünya və regional reytinqlərdəki mövqeyini əhəmiyyətli dərəcədə gücləndirməyə davam edir. Bunlarla yanaşı, infrastruktur yenilənir. Son zamanlar BDU-da “Eko Məkan”, “Tələbə məkanı”, Faydalı qazıntılar muzeyi, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Materialşünaslıq elmi-tədqiqat laboratoriyasının açılışları olub.

Elçin Babayev Şura üzvlərinə imta-



han sessiyasının gedişi ilə bağlı da məlumat verib. O, əvvəlki illərə nisbətən köçürmə hallarının azaldığını bildirib. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Ümumilikdə sessiya ərzində bakalavriat səviyyəsində 701 qrup üzrə 16000-dən çox, magistratura səviyyəsində 215 ixtisaslaşma üzrə 1175 magistrant imtahan verir. İyunun 12-də 15 fakültə üzrə 239 imtahan baş tutub. Bu imtahanlarda 236 qrup üzrə 5374 nəfər iştirak edib.

Sonra İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri imtahan prosesini müşahidə ediblər.

# BDU-nun prorektoru Macarıstanda Türk Dövlətlərinin Akademik Konfransında iştirak edib

***BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov 2025-ci il 25-26 iyun tarixlərində Macarıstanın paytaxtı Budapeşt şəhərində Obuda Universitetinin təşkilatçılığı ilə keçirilmiş Türk Dövlətlərinin Akademik Konfransında iştirak edib.***

Azərbaycan, Türkiyə, Macarıstan, Qazaxıstan, Özbəkistan və Qırğızıstan universitetlərinin nümayəndələrinin iştirak etdiyi konfransda elmi tədqiqatların dəstəklənməsi üçün türk dövlətlərinin birgə fondunun, tədqiqat, təqaüd imkanlarının yaradılması, qabaqcıl tədqiqatçılar üçün istedad düşərgələrin təşkili, mədəniyyətlərarası əlaqələrin gücləndirilməsi, ali təhsil müəssisələri arasında tələbə mübadiləsinin təşviq edilməsi, o cümlədən akademik sahədə yeni əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

Konfransın açılış mərasimində Macarıstanın mədəniyyət və innovasiya naziri Balazs Hanko, Obuda Universitetinin rektoru Levente Kovacs, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev (onlayn), Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın Macarıstandakı fövqəladə və səlahiyyətli səfirləri çıxış ediblər.

Konfrans çərçivəsində Obuda Universiteti, Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti, Qazax Milli Su Menecmenti və İrriqasiya Universiteti, Daşkənd Dövlət Texniki Universiteti, Szechenyi Istvan Universiteti, Daşkənd Kimya Texnologiyaları İnstitutunun nümayəndələri ilə görüş keçirilib, elm-təhsil əlaqələrinin inkişaf etdirilməsi, təhsilin magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramlarının hazırlanması üzrə müzakirələr aparılıb və ilkin razılıq əldə edilib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətini ölkəmizin Macarıstanda fövqəladə və səlahiyyətli səfiri Tahir Tağızadə qəbul edib. Səfir nümayəndə heyətinə Azərbaycan və Macarıstan arasında elm, təhsil və mədəni əlaqələr haqqında ətraflı məlumat verib. Görüşdə iki ölkə universitetləri arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi, birgə proqram və elmi layihələrin hazırlanması, tələbə-müəllim mübadiləsinin aparılması üzrə fikir mübadiləsi aparılıb.

# BDU-da Milli Qurtuluş Günü qeyd olunub

***İyunun 13-də BDU-da 15 iyun – Milli Qurtuluş Gününün 32-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Milli Qurtuluş Gününün xalqımızın tarixi taleyini müəyyənləşdirən gün olduğunu bildirib. O qeyd edib ki, XX əsrin sonlarında milli dövlətçiliyimizin məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı bir şəraitdə məhz Ümummilli Lider Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin xilası missiyasını əzmlə öz üzərinə götürüb: "Həyatının məqsədi yalnız doğma xalqının xoşbəxtliyi və tərəqqisi olan Ulu Öndər Heydər Əliyev hələ XX əsrin 70-ci illərindən – Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən sovet hakimiyyətinin bütün təqib və təzyiqlərinə baxmayaraq, dövlətimizin suverenliyinə, xalqımızın milli qurtuluşuna gedən yolun təməlini qoyur, şüurlarda, beyinlərdə bugünkü günlərimizin toxumlarını cücərdirdi. XX əsrin sonlarında yenidən müstəqillik qazanan dövlətimiz qısa müddətdən sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. 1993-cü ilin iyununda ölkədə hakimiyyət böhranı, xaos və anarxiya dövlət müstəqilliyimizi itirmək təhlükəsi yaratdı. Bu ağır vəziyyətdən Azərbaycanı yalnız Ulu Öndər Heydər Əliyev xilas edə bilərdi. 1993-cü ilin mürəkkəb, ziddiyyətli və ağır iyun günlərində xalqın çağırışına səs verən Ümummilli Lider Heydər Əliyev yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtdı. Bununla da ölkəmizin həyatında yeni mərhələnin əsası qoyuldu. Xalqın çağırışı ilə Bakıya dönən Ulu Öndər yekdilliklə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir xalq olaraq hədəflərimizi, gedəcəyimiz yolu inamla bəyan etdi".

Rektor bildirib ki, Ulu Öndərin 1993-2003-cü illəri əhatə edən hakimiyyəti dövründə Azərbaycan postsovet ölkələri ilə müqayisədə keçid dövrünün çətinliklərini daha uğurla arxada qoyub, sürətli dirçəliş mərhələsinə daxil oldu. Xalqımızı bəlalardan, dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edən Ulu Öndər qısa müddət ərzində bugünkü qüdrətli Azərbaycanın prioritetlərini müəyyənləşdirdi. Dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyasını hazırladı. Dahi şəxsiyyətin Azərbaycan xalqına ən böyük töhfəsi isə həmin prioritetləri, inkişaf konsepsiyasını özündən sonra həyata keçirəcək siyasi varisini yetişdirməsi oldu. 2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin milli qurtuluş konsepsiyasını inamla həyata keçirdi. Bununla da xalqımızın, dövlətimizin hərtərfli rifahına, tərəqqisinə nail olundu. Ulu Öndərin müqəddəs ata vəsiyyəti 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzmlə, fədakarlıqla yerinə yetirildi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan xaosdan, özbaşınalıqdan, vətəndaş müharibəsindən, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən qurtulmuşdusa, Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror tədbirləri ilə işğal altında olan bütün torpaqlarımız əsarətdən xilas oldu. Bununla da müstəqil, qüdrətli, suveren, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın həyatında yeni-yeni səhifələr açıldı. Bundan sonra Azərbaycanı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük tərəqqi, davamlı inkişaf və xoşbəxt günlər gözləyir!".

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Milli Məclisin üzvü Rizvan Nəbiyev, BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Aytən Qurbanova çıxışlarında Milli Qurtuluş Gününün tarixi əhəmiyyətini vurğulayıb, ölkənin iqtisadi, siyasi, hərbi inkişafının məhz bu möhtəşəm tarixdən başladığını qeyd ediblər. Bildirilib ki, qüdrətli Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu Vətənə xidmətin parlaq nümunəsidir.

Tədbir Milli Qurtuluş Gününə həsr olunmuş videoçarxın nümayiş olunması ilə başa çatıb.

# BDU kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

***İyunun 14-də BDU kollektivi 15 iyun – Milli Qurtuluş Günü ilə əlaqədar Fəxri xiyabanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib.***

Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad olunub.



# Azərbaycan tarixinin dönüş nöqtəsi - Milli Qurtuluş Günü

***Azərbaycan xalqının, dövlətinin taleyində böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik 15 iyun – Milli Qurtuluş Günündən 32 il ötür.***

1991-ci ildə xalqımız uzun illər arzusunda olduğu dövlət müstəqilliyini yenidən bərpa etsə də, təəssüf ki, qısa zaman kəsiyində müstəqilliyin itirilməsi sınağı ilə üz-üzə qaldı. Müstəqil Azərbaycan inkişaf və rifah əvəzinə günü-gündən tənəzzülə uğradı. Xalqımız vətəndaş qarşıdurmasına yuvarlandı. Ermənistanın Azərbaycana təcavüzü respublikada vəziyyəti daha da gərginləşdirdi. Belə bir dözülməz şəraitdə xalqımızı və ölkəmizi bu acınacaqlı vəziyyətdən yalnız fenomenal şəxsiyyət – Ulu Öndər Heydər Əliyev çıxara bilərdi.

1993-cü ilin 9 iyununda xalqının səsinə, harayına səs verərək Bakıya dönən Ulu Öndər yeni və daha parlaq bir tarixin yaradıcısı oldu. Bu dönüş, qayıdış bütün mənalarda milli qurtuluşumuz, milli nicatımız idi. Bu mənada Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi 1993-cü il 15 iyun tarixinin xalqımız tərəfindən Milli Qurtuluş Günü adlandırılması qədirbilən xalqımızın müdrik rəhbərinə verdiyi tarixi qiymət, öz sabahını müəyyənləşdirmək baxımından verdiyi böyük tarixi qərardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan tarixinin dönüş nöqtəsi" adlandırdığı Milli Qurtuluş Günü bu gün əldə etdiyimiz bütün uğurların təməli, məhək daşı oldu.

1997-ci ildən etibarən rəsmi olaraq dövlət bayramı kimi qeyd edilən bu tarix ilk növbədə XX əsrdə ikinci dəfə əldə etdiyimiz müstəqilliyimizin xilası kimi olduqca böyük əhəmiyyət daşıyır.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu, həyata keçirmək istədiyi daha bir tarixi missiya 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış özbaşınalıq şəraitində işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi idi. 2003-cü ildə xalqın yüksək etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ulu Öndərimizin xilaskarlıq, qurtuluş, tərəqqi və rifah missiyasını uğurla davam etdirdi. Azərbaycanı günbəgün qüdrətləndirən Prezident İlham Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan və tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi ilə layiqli davamçısı olduğu Ümummilli Liderin ən böyük arzusunu gerçəkləşdirdi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı milli qurtuluş savaşı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi, Qarabağın işğaldan qurtulması ilə özünün zirvəsinə çatdı.

Hazırda azad Qarabağımız müstəqil dövlətimizin gücü və potensialı ilə yenidən cənnətə çevrilir, doğma Vətənimiz günbəgün inkişaf edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda, Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri həyata keçirilir, Böyük Qayıdış uğurla reallaşır. Xalqımız əmindir ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan bundan sonra da böyük uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq. Çünki ölkəmizin İlham Əliyev kimi qətiyyətli, güclü siyasi iradəyə malik, xalqının və dövlətinin maraqlarını əzmlə, cəsarətlə müdafiə edən Prezidenti var. Tezliklə Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl guşələrindən birinə çevriləcək və bu, tariximizə daha bir uğur səhifəsi kimi yazılacaq.

Xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək!

# BDU-da "Qurtuluşumuzun Suverenlik yolu" adlı kitab sərgisi



***Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 15 iyun Milli Qurtuluş Günü münasibətilə "Qurtuluşumuzun Suverenlik yolu" adlı kitab sərgisi hazırlayıb.***

Sərgidə Azərbaycan, rus və ingilis dillərində Ulu Öndər Heydər Əliyevin zəngin ictimai-siyasi irsini, dövlətçiliyimizin möhkəmləndirilməsindəki əvəzsiz xidmətlərini və ölkəmizin müstəqilliyə gedən yolunu əks etdirən 100-dən çox nəşr nümayiş olunub.

Nümayiş olunan nəşrlər içərisində Ümummilli Liderin çoxcildlik əsərləri, xarici səfərlərindən bəhs edən materiallar və ölkənin müxtəlif sahələrdəki nailiyyətlərini əhatə edən kitablar da yer alır. "Azərbaycanın qurtuluş tarixi", "Qurtuluşdan tərəqqiyə" kimi nəşrlər oxucuların xüsusi marağına səbəb olub.

Sərgi gənc nəslin milli yaddaşının gücləndirilməsi və tariximizə dərin bağlılıq ruhunda yetişməsinə töhfə verməyi hədəfləyir.

# BDU Qlobal Dayanıqlı İnkişaf Konqresində öz stendi ilə təmsil olunur

***16-19 iyun 2025-ci il tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilən və dünyanın aparıcı ali təhsil və tədqiqat institutlarını bir araya gətirən Qlobal Dayanıqlı İnkişaf Konqresində (Global Sustainable Development Congress) Azərbaycan pavilyonunda öz stendi ilə təmsil olunub.***

Dörd gün davam edən bu mühüm beynəlxalq tədbir nüfuzlu "Times Higher Education" (THE) reytinq agentliyi və Türkiyə Ali Təhsil Şurasının (YÖK) birgə təşəbbüsü ilə təşkil edilib. Konqres ali təhsil müəssisələri, tədqiqat mərkəzləri, dövlət qurumları və qeyri-hökumət təşkilatlarının Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf




Məqsədləri (DİM) çərçivəsində apardıqları fəaliyyətləri müzakirə, qlobal əməkdaşlığı təşviq etmək və ortaq həll yollarını müəyyənləşdirmək üçün əhəmiyyətli platforma rolunu oynayır.

BDU-nun stendində Universitetin dayanıqlı inkişaf sahəsində həyata keçirdiyi təhsil və tədqiqat təşəbbüsləri, beynəlxalq əməkdaşlıq strategiyaları, yaşıl kampus təşəbbüsləri və iqlim dəyişikliklərinə uyğunlaşdırma ilə bağlı layihələri ziyarətçilərə təqdim olunur. Həmçinin, BDU-nun DİM-lərə uyğun olaraq həyata keçirdiyi fəaliyyətlər, Universitetin beynəlmiləlləşmə strategiyası çərçivəsində əldə etdiyi uğurlar və gələcək əməkdaşlıq imkanları barədə ətraflı məlumat verilir. Stend ətrafında interaktiv müzakirələr BDU-nun təcrübəsinin paylaşılması və yeni tərəfdaşlıqların qurulması baxımından əhəmiyyətli imkanlar yaradıb.

BDU-nun bu cür beynəlxalq tədbirlərdə iştirakı Universitetin qlobal miqyasda tanınmasına, elmi əməkdaşlıqların genişlənməsinə və Azərbaycanın ali təhsil sektorunun beynəlxalq platformalarda layiqincə təmsil olunmasına mühüm töhfə verir.

# BDU rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti Qlobal Dayanıqlı İnkişaf Konqresinin açılış mərasimində iştirak edib



***İyunun 17-də Türkiyənin İstanbul şəhərində "Times Higher Education" (THE) və Türkiyə Ali Təhsil Şurası (YÖK) tərəfindən təşkil olunan Qlobal Dayanıqlı İnkişaf Konqresinin rəsmi açılış mərasimi keçirilib. BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti də tədbirdə iştirak edib.***

Tədbirin açılışında THE-nin qlobal əlaqələr üzrə Baş Direktoru Phil Baty və YÖK-ün rəhbəri Erol Özvar çıxış edərək, konqresin əhəmiyyəti və ali təhsildə dayanıqlılıq mövzusunun aktuallığı haqqında fikirlərini bölüşüblər. Ardınca Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək, ölkəmizdə elm və təhsil sahəsində dayanıqlı inkişaf istiqamətində həyata keçirilən islahatlar, proqramlar və beynəlxalq əməkdaşlıqlar barədə ətraflı məlumat verib.

Rəsmi açılış çərçivəsində sabah açıqlanması nəzərdə tutulan "THE Impact Rankings 2025" nəticələrindən seçilmiş dünyanın TOP-10 universitetinin siyahısı da konqres iştirakçılarının diqqətinə təqdim olunub.

Açılışdan sonra Azərbaycanın elm və təhsil naziri və YÖK-ün rəhbəri sərgi zonasında nümayiş etdirilən Azərbaycan pavilyonu ilə tanış olublar. Qeyd edək ki, pavilyonda BDU da daxil olmaqla Azərbaycanın bir sıra aparıcı ali təhsil müəssisələri dayanıqlı inkişafla bağlı təşəbbüslərini, tədqiqat layihələrini və nailiyyətlərini təqdim ediblər. Azərbaycan pavilyonu yerli və beynəlxalq media orqanlarında da geniş işıqlandırılıb.

Azərbaycanın bu nüfuzlu beynəlxalq tədbirdə fəal iştirakı ölkəmizin ali təhsil sisteminin qlobal dayanıqlı inkişaf gündəminə verdiyi töhfənin mühüm göstəricisidir.

# BDU-nun komandası intellektual oyunun qalibi olub

***İyunun 26-da "BDU könüllüləri" təşkilatının komandası "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" III gənclər düşərgəsi çərçivəsində keçirilən "Nə? Harada? Nə zaman?" intellektual oyununun qalibi olub.***

İntellektual oyun zamanı iştirakçılar Qərbi Azərbaycanın tarixi, ədəbiyyatı, coğrafiyası, tanınmış şəxsiyyətləri, folkloru və digər mövzularla bağlı sualları cavablandırıblar.

14 komandanın mübarizə apardığı "Nə? Harada? Nə zaman? intellektual oyununda BDU-nun "Evrika" komandası I, "Sərdar sarayı" komandası II, "Çuxursəd" komandası isə III yerə layiq görülüb. Qaliblər diplom, medal, kubok və müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

Qeyd edək ki, düşərgə Gənclər və İdman Nazirliyi, Qərbi Azərbaycan İcması, Bakı Dövlət Universiteti, "ASAN Könüllüləri" Təşkilatı və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilir.

# Təhsilin İnkişafı Fondu BDU-da "TəhsilPlus" kartı ilə bağlı görüş keçirib

***İyunun 18-də Təhsilin İnkişafı Fondu (TİF) BDU-nun pedaqoji və inzibati heyəti üçün "TəhsilPlus" kartı ilə bağlı görüş keçirib. Görüşdə təhsil işçiləri üçün müxtəlif güzəşt və imtiyazlar təqdim edən bu yeni layihə ətrafında fikir mübadiləsi aparılıb.***

Görüşdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Fond tərəfindən həyata keçirilən bir sıra uğurlu sosial və təhsil yönümlü layihələr barədə danışıb. BDU ilə TİF arasında birgə layihələrdən bəhs edib, bu layihənin təhsil işçiləri üçün faydalı olacağını bildirib.

Daha sonra Fondun İdarə Heyətinin sədr müavini Xanım Daşdəmirbəyli dövlət-özəl tərəfdaşlığı çərçivəsində bu günədək həyata keçirilmiş layihə və proqramlar barədə geniş məlumat verib. O, bu görüşün əsas məqsədinin təhsil sahəsində çalışan şəxslərin ehtiyaclarını və gözləntilərini müəyyənləşdirmək olduğunu qeyd edib.

Görüş zamanı geniş müzakirələr aparılıb, müəllimlərin rəy və təklifləri dinlənilib.

# BDU-da Çinin Dalian Texnologiya Universitetinin nümayəndə heyəti ilə görüş

***İyunun 18-də BDU-da Çin Xalq Respublikasının (ÇXR) Dalian Texnologiya Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı, elmi işlər üzrə dekan müavini Qalib Qafarlı, Dalian Texnologiya Universitetinin CIS Tədqiqat Mərkəzinin direktoru Guo Shuhong, Marksizm İnstitutunun əməkdaşı Dıao Xıuhua və İqtisadiyyat bölməsinin müdir müavini Chen Zhen iştirak ediblər.

Görüş zamanı hər iki universitet arasında qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub. Qonaqlara BDU-nun tarixi, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verilib. Daha sonra Dalian Texnologiya Universitetinin nümayəndələri beynəlxalq əlaqələr sahəsindəki təcrübələrini bölüşüblər. Tərəflər tədris proqramlarının hazırlanması, elmi tədqiqatlar və beynəlxalq layihələr üzrə əməkdaşlığın və təcrübə mübadiləsinin vacibliyini vurğulayıblar. Görüşün sonunda iqtisadiyyat, beynəlxalq münasibətlər, dilçilik və elm-texnologiya sahələrində ortaq layihələrin həyata keçirilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının təşkili təklif olunub.

Qeyd edək ki, 1949-cu ildə təsis olunmuş Dalian Texnologiya Universiteti Çin Xalq Respublikasının aparıcı təhsil müəssisələrindən biridir. O, QS Dünya universitetləri reytinqində 448-ci yerdə qərarlaşıb.

# BDU dünya universitetləri reytinqində TOP-700-lükdə yer alaraq, Cənubi Qafqaz üzrə liderdir

***BDU ali təhsil sahəsində dünyanın ən nüfuzlu reytinq agentliklərindən biri olan "Quacquarelli Symonds" (QS) tərəfindən tərtib edilən "QS World University Rankings 2026: Top global universities" cədvəlində 688-ci yerdə qərarlaşaraq, növbəti mühüm uğura imza atıb.*** Bu nəticə Universitetin ötənilki 951–1000 aralığındakı mövqeyindən əhəmiyyətli irəliləyişə nail olduğunu göstərir. Qeyd olunan göstərici BDU-nun təkcə Azərbaycanda ali təhsil sahəsində deyil, bütün Cənubi Qafqazda lider mövqeyini bir daha təsdiqləyir və beynəlxalq akademik arenada artan nüfuzunun növbəti təsdiqidir.

QS agentliyi tərəfindən yeni reytinq sıralaması hazırlanarkən 105 ölkədən 8467 universitetin məlumatları qiymətləndirilib, onlardan yalnız 1501 universitet dünya reytinq siyahısına daxil edilib. Reytinqin hesablanmasında ali




təhsil müəssisələrinin akademik nüfuzu, işəgötürənlər arasında tanınma səviyyəsi, elmi nəşrlərin miqdarı və onlara edilən istinadlar, məzunların məşğulluğu göstəriciləri, əcnəbi akademik heyət və tələbə nisbəti, beynəlxalq tədqiqat əməkdaşlıqları və dayanıqlılıq meyarları əsas götürülür.

BDU-nun bu uğuru son illərdə Universitetin elmi fəaliyyətinin intensivləşdirilməsi, tədris və idarəetmə proseslərinin beynəlxalq standartlara uyğunlaşdırılması, habelə qlobal tərəfdaşlıqların inkişafı istiqamətində atılan məqsədyönlü addımların nəticəsi olmaqla yanaşı, həm də elm, təhsil və innovasiyanın inteqrasiyasına əsaslanan strateji yanaşmanın, sənaye və özəl sektorla qurulan funksional əməkdaşlığın, eləcə də insan kapitalının inkişafına yönəlmiş kompleks islahatların göstəricisidir.

Bu dövrdə Universitetdə qabaqcıl tədqiqat istiqamətlərinin dəstəklənməsi, tətbiqyönümlü layihələrin təşviqi, tələbə-məzun bacarıqlarının əmək bazarının çağırışlarına uyğunlaşdırılması və rəqəmsal transformasiya ilə müşayiət olunan idarəetmə modellərinin tətbiqi kimi mühüm təşəbbüslər həyata keçirilib. Eyni zamanda, BDU beynəlxalq şəbəkələrdə fəal iştirakını genişləndirərək, nüfuzlu akademik institutlarla, sənaye liderləri və texnoloji şirkətlərlə tərəfdaşlıq əlaqələrini gücləndirib, bu əməkdaşlıqlar vasitəsilə həm elmi nəticələrin praktiki tətbiqini, həm də innovasiya yönümlü tədris mühitinin formalaşmasını təmin edib.

BDU rəhbərliyi bu mühüm göstəricinin əldə olunmasında əməyi olan akademik və inzibati heyətə, tələbələrə və Universitetin bütün tərəfdaşlarına dərin təşəkkürünü bildirir. Universitet növbəti illərdə daha yüksək pillələrdə yer almağı və Azərbaycanın beynəlxalq ali təhsil məkanında mövqeyinin güclənməsinə töhfə verməyi qarşıya əsas məqsəd kimi qoyur. Eyni zamanda, QS reytinqində yer alan digər Azərbaycan universitetlərini bu uğurları münasibətilə təbrik edir, onlara gələcək fəaliyyətlərində yeni nailiyyətlər arzulayırıq.

Xatırladaq ki, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"na əsasən, ölkənin ən azı üç ali təhsil müəssisəsinin dünyada TOP-800-lükdə təmsil olunması strateji hədəf kimi müəyyən edilib. BDU bu hədəfə artıq nail olmağın qürurunu yaşayır və ölkənin digər universitetlərinin də qlobal reytinqlərdə irəliləyəcəyinə inanır.

# BDU-nun 10 tələbəsi "Gənc qızların təhsilinə dəstək" layihəsindən məzun oldu



***İyunun 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə "Gənc qızların təhsilinə dəstək" layihəsi iştirakçılarının Məzun Günü təşkil edilib.***

Məzun Günü 2021-ci ildə ali təhsil müəssisələrinə yüksək balla daxil olmuş "Hənifə Məlikova-Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı və "Sən tək deyilsən" layihəsi çərçivəsində "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramı iştirakçılarının məzun olması, eləcə də onların əzmkarlığını, nailiyyətləri qeyd etmək məqsədilə keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, elm və təhsil naziri Emin Əmrullayev, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, deputatlar və ictimaiyyət nümayəndələri, o cümlədən tələbələr iştirak ediblər.

BDU-nun 10 tələbəsi – Bahar Ağayeva, Milana Rüstəm, Gülyanaq Sarıyeva, Aydan Xəmmədli, Aysu Əhmədli, Həqiqə Cəfərova, Gözəl Cabbarova, Günel Yaqubova, Nargül İbrahimli, Zeynəb Bədəlova da "Gənc qızların təhsilinə dəstək" layihəsindən məzun olanlar arasındadır.

Tələbələrimizi təbrik edir, onlara daha böyük uğurlar arzulayırıq!

# BDU-da elmi seminar: "Türk dünyasının mədəniyyət paytaxtı Şuşa haqqında nəşrlər"

***İyunun 24-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Türk dünyasının mədəniyyət paytaxtı Şuşa haqqında nəşrlər" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının magistrantı Zeynəb Əbdulzadə məruzə edib.***

Gənc tədqiqatçı Şuşanın tarixi, mədəni irsi və Türk dünyası üçün strateji və simvolik əhəmiyyəti barədə məlumatları diqqətə çatdırıb. Məruzədə Şuşa şəhərinin tarixi, görkəmli şəxsiyyətləri, maddi-mədəniyyət nümunələri haqqında çap olunmuş elmi, publisistik və ədəbi nəşrlər geniş şəkildə qeyd edilib. Xüsusilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən ötən beş il ərzində ölkənin aparıcı nəşriyyatları tərəfindən Şuşa haqqında çap edilən kitablar, toplular, statistik nəşrlər, soraq-məlumat ədəbiyyatı araşdırmada geniş analiz edilib, bir sıra müqayisəli təhlillər aparılıb. Ölkə nəşriyyatlarının bu mövzuda çap etdiyi kitablar ad və tiraj göstəriciləri üzrə diaqram şəklində təqdim olunub, nəşrlər ədəbiyyat növlərinə görə fərqləndirilib.

Tədqiqatda həmçinin Şuşa haqqında çap olunmuş əsərlərin xarici dillərə tərcümə prosesi araşdırılıb. Bu mövzudakı tərcümə kitablarının Azərbaycanın mədəni irsinin, tarixi həqiqətlərimizin və Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beynəlxalq səviyyədə təbliğindəki mühüm rolu vurğulanıb.

# BDU-da MEDİA-nın təşkilatçılığı ilə "Euronews Academy" beynəlxalq tədris proqramına start verilib

***İyunun 23-də BDU-da Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) və Avropanın aparıcı xəbər şəbəkələrindən biri olan "Euronews" telekanalının birgə əməkdaşlığı çərçivəsində "Euronews Academy" beynəlxalq tədris proqramına start verilib.***

Açılış mərasimində çıxış edən "Euronews"un Bakı üzrə icraçı direktoru Fernando Soares bildirib ki, sözügedən proqram gənc jurnalistlərə beynəlxalq standartlara uyğun bilik və bacarıqlar qazandırmaqla yanaşı, onları informasiya mühitində mövcud çağırışlara cavab verə bilən peşəkar kadrlar kimi formalaşdırmağı hədəfləyir. O, layihənin jurnalistlərin etik prinsiplərə sadiq qalaraq keyfiyyətli və obyektiv xəbər istehsalına mühüm töhfə verəcəyini vurğulayıb.




Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli isə qeyd edib ki, media sahəsində peşəkarlığın artırılması, müasir jurnalistika standartlarının təşviqi və rəqəmsal dövrdə yeni bacarıqların əldə olunması baxımından belə beynəlxalq platformaların rolu böyükdür. O, tədris proqramının Azərbaycanda informasiya mühitinin inkişafı və jurnalistlərin beynəlxalq təcrübə ilə zənginləşməsində vacib rol oynayacağını qeyd edib.

Jurnalistika fakültəsinin dekanı, Mətbuat Şurasının sədr müavini Vüqar Əliyev isə çıxışında belə təşəbbüslərin gənc jurnalistlərin qlobal media proseslərinə inteqrasiyasına təkan verdiyini bildirib. O diqqətə çatdırıb ki, beynəlxalq ekspertlərlə birbaşa ünsiyyət imkanını təmin edən proqramlar tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla zənginləşdirməsinə şərait yaradır.

Medianın İnkişafı Agentliyinin BDU-da xüsusi auditoriyasında keçirilən beşgünlük təlim proqramının ilk günü "Rəqəmsal xəbər toplama və məlumatlara əsaslanan jurnalistika" mövzusunda həsr olunub. İştirakçılar "Euronews" telekanalının tanınmış mütəxəssisi, 14 ildən artıq beynəlxalq təcrübəyə malik multimedia jurnalisti Tuba Altunkayanın təqdimatında rəqəmsal mühitdə xəbərlərin toplanması, məlumatların təhlili və faktlara əsaslanan jurnalistikanın əsas prinsipləri ilə tanış olublar.

Təlim proqramı interaktiv mühazirələr, praktiki tapşırıqlar, qrup müzakirələri, mətn və video analizləri ilə davam edib.

Qeyd edək ki, təlim proqramı iyunun 27-dək davam edib.

# BDU-nun kafedra müdirinin Ümummilli Lider Heydər Əliyev irsinə həsr olunmuş monoqrafiyası nəşr olunub

*İyunun 17-də İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Sevda Xələfovanın Ümummilli Lider Heydər Əliyevin irsinə həsr olunmuş monoqrafiyası nəşr olunub.*



BDU Elmi Şurasının qərarı ilə nəşr edilməsi tövsiyə olunan "Ümummilli Lider Heydər Əliyevin irsinə dair elektron kitabxana-informasiya resursları" adlı monoqrafiyanın elmi redaktoru dosent Ələmdar Cabbarlı, ixtisas redaktoru dosent Nadir İsmayılov, rəyçisi dosent Zahidə Rzayevadır. Monoqrafiyada Ümummilli Lider Heydər Əliyev irsinin nəzəri və metodoloji əhəmiyyəti, nəşr tarixi, tədqiqi istiqamətləri, rəqəmsal informasiya mühitində bu irsə dair kitabxana-informasiya resurslarının formalaşması və inkişaf dinamikası kimi mühüm məsələlər əksini tapıb.

Monoqrafiya müxtəlif elm sahələrində fəaliyyət göstərən alimlər, tədqiqatçılar, müəllimlər, tələbələr, ümumiyyətlə bütün oxucu qrupları üçün nəzərdə tutulub.

# TKTA BDU-da ali təhsil müəssisələri üçün "Keyfiyyətə doğru addım: Akkreditasiya prosesinə hazırlıq" adlı seminar keçirib

*İyunun 23-də Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) Bakı Dövlət Universitetində (BDU) "Keyfiyyətə doğru addım: Akkreditasiya prosesinə hazırlıq" mövzusunda ikigünlük seminar keçirib. Tədbirdə ölkənin 40 ali təhsil müəssisəsindən (ATM) 84 əməkdaş iştirak edib.*



Seminarın açılış mərasimində çıxış edən rektor Elçin Babayev bildirib ki, ali məktəblərin akkreditasiyası kifayət qədər məsuliyyətli bir prosesdir. Bu, yalnız universitetlərin fəaliyyətini qiymətləndirmir, həm də onların daxili inkişaf strategiyasını, idarəetməni necə qurduqlarını göstərir, cəmiyyət qarşısında cavabdehlik hissini gücləndirir: "Bəzən səhv olaraq akkreditasiyaya cəza mexanizmi kimi baxılır. Əksinə, akkreditasiya qüsurların düzəldilməsi üçün faydalı, universitetlərin xeyrinə olan prosesdir. Özünütəhlili düzgün aparmayanda nöqsanların düzəldilməsi də çətin olur. Keyfiyyət təminatı yalnız tədrisi deyil, elm, beynəlxalq əlaqələr, sosial həyat, hətta təsərrüfatın təşkili kimi məsələləri əhatə edir. Belə seminarların təşkili müxtəlif universitetlərin bu sahədə təcrübə mübadiləsi aparmasına imkan verir".

TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov isə çıxışında ATM-lərdə keyfiyyət mədəniyyətinin formalaşdırılması, dayanıqlı inkişafın təmin olunması və tələbəyönümlü təhsil mühitinin gücləndirilməsi baxımından belə seminarların mühüm rol oynadığını vurğulayıb: "Ali təhsildə kəmiyyətin keyfiyyətə keçməsini yüksək səviyyədə təmin edə bilsək, cəmiyyətə daha çox fayda vermiş olarıq. Akkreditasiya ATM-lər üçün vəziyyətin düzgün qiymətləndirilməsi və onun daha da yaxşılaşdırılması üçün bir alətdir. TKTA bu məsələdə ATM-lərə dəstək verməyə hazırdır. Akademik dürüstlük hər bir ali məktəb üçün əsas məqamdır".

Qeyd edək ki, seminarın əsas məqsədi institusional və proqram akkreditasiyasına ATM-lərin hazırlıq səviyyəsini artırmaq, onlara metodoloji dəstək göstərmək və akkreditasiya prosesinin uğurla təşkil edilməsi üçün zəruri təcrübələri paylaşmaqdan ibarətdir.

Tədbirin ilk günü "Akkreditasiya prosesində ATM-lərin və ekspertlərin rolu" mövzusunda panel müzakirəsi keçirilib. Paneldə ATM-lərin nümayəndələri və TKTA tərəfindən akkreditasiya proseslərinə cəlb olunmuş ekspertlər iştirak ediblər. Müzakirə zamanı ekspertlər və ATM nümayəndələri akkreditasiya prosesində ATM-lərdə müşahidə olunan güclü və zəif tərəflər, proqram və institusional qiymətləndirmə arasında fərqlər, Özünütəhlil hesabatlarında rast gələnən əsas çağırışlar, eləcə də akkreditasiyanın inkişafyönümlü qiymətləndirmə kimi tətbiqinə dair təcrübələrini bölüşüblər.



İki gün ərzində təşkil olunacaq seminar sessiyalarında TKTA əməkdaşları tərəfindən təqdimatların keçirilməsi nəzərdə tutulur. Sessiyalarda akkreditasiya mərhələləri, qiymətləndirmə meyarları, akkreditasiya prosesində sorğuların rolu, uğurlu akkreditasiya prosesini şərtləndirən amillər və Özünütəhlil hesabatının hazırlanması kimi mövzulara dair iştirakçılara praktiki nümunələr təqdim ediləcək, mövzular üzrə suallar cavablandırılacaq. Eyni zamanda, TKTA nümayəndələri tərəfindən konkret nümunələr əsasında izahatlar veriləcək, iştirakçıların təklifləri dinləniləcək.

TKTA öz Nizamnaməsinə uyğun olaraq mütəmadi olaraq təhsil müəssisələrinin akkreditasiyasının tələblərə uyğun həyata keçirilməsi üçün təlimlər təşkil edir və metodiki dəstək göstərir. TKTA tərəfindən ATM-lərin akkreditasiya prosesinə hazırlığının artırılması üçün bu kimi təlimlərin ildə iki dəfə keçirilməsi nəzərdə tutulur.

# BDU-da Bakı və Abşeronda atmosfer havasının aktiv biomonitorinqinin nəticələri açıqlanıb

*İyunun 18-də Ekologiya və torpaqşünaslıq fakültəsində Ekoloji kimya kafedrasının "Ekoloji kimya" ixtisası üzrə doktorantı Orxan Hacıyevin "Bakı şəhəri və Abşeron yarımadasında atmosfer havasının aktiv biomonitorinqin nəticələri: "Sphagnum girgensohnii" mamır-transplantatlarından istifadə olunmaqla" mövzusunda elmi seminarı keçirilib. Dissertasiya işinə kimya elmləri doktoru, professor Sevinc Hacıyeva və kimya elmləri namizədi, dosent Zərifə Vəliyeva rəhbərlik edir.*

Elmi seminarda Orxan Hacıyev tərəfindən aparılan tədqiqatın nəticələri təqdim olunub. Tədqiqatda Bakı şəhəri və Abşeron yarımadasının sənaye və nəqliyyatın təsiri altında olan atmosfer havasının keyfiyyəti aktiv biomonitorinq üsulu ilə qiymətləndirilib. Bu məqsədlə "Sphagnum girgensohnii" növündən olan mamır-transplantatlardan istifadə edilib.

Araşdırma çərçivəsində 21 nöqtədə "mamır torbaları" quraşdırılıb, 12 həftəlik ekspozisiyadan sonra toplanmış nümunələr neytron aktivasiya analizi (İNAA), atom-absorbsion spektrometriya (AAS) və qaz xromatoqrafiyası ilə analiz olunub.

Əldə edilən nəticələrə əsasən, Na, Cl, I, Al, V, Pb, Th, U və digər elementlər üzrə bəzi nöqtələrdə Yol Verilən Qatılıq Həddi (YVQH) normativlərini aşan konsentrasiyalar müəyyən edilib. Eyni zamanda, bəzi zəhərli və təhlükəli metallar (Cd, Cu, Ni, Zn) üzrə də yerli səviyyədə artım müşahidə olunub. Poliaromatik karbohidrogenlər (PAH) bir sıra sənaye zonalarında aşkar edilib.

Əsas çirklənmə mənbələri kimi neft emalı və qaz hasilatı müəssisələri, metallurgiya və kimya sənayesi obyektləri, nəqliyyat vasitələrinin buraxdığı emissiyalar müəyyən olunub.

Tədqiqatın nəticələri Abşeron regionu üçün atmosfer çirklənməsinin cari vəziyyəti haqqında obyektiv və əsaslı məlumat verir. Yerli şəraitə uğurla tətbiq oluna bilən bu metodika gələcəkdə genişmiqyaslı monitorinq proqramlarına inteqrasiya üçün tövsiyə edilir.

# BDU-da diferensial həndəsənin aktual problemləri tədqiq edilir

*BDU-nun Cəbr və həndəsə kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Arif Səlimovun müəllifi olduğu məqalə "Web of Science" və "SCOPUS" bazalarında indekslənən (Q1) "Journal of Geometry and Physics" jurnalında çap olunub.*

Məqalə müasir diferensial həndəsənin və fizikanın aktual problemlərindən biri olan Riççi solitonlara həsr edilib. Qeyd edək ki, Riççi solitonları Eynşteyn çoxobrazlılarının ümumiləşməsidir. Bu solitonlar məşhur Qriqori Perelman 2000-ci illərin əvvəlində Puankare probleminin həllində tətbiq etdikdən sonra daha da populyarlaşıb.

# BDU və KOBİA-nın əməkdaşlığı çərçivəsində Universitetdə EkoEnerji Məntəqəsi açılıb






***İyunun 23-də BDU-nun ərazisində BDU və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə tərəfdaşlığı ilə elektromobillərin bərpa olunan enerji hesabına elektrik enerjisi ilə doldurulmasını təmin edən EkoEnerji Məntəqəsinin açılışı olub.***

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycanda "yaşıl enerji", "yaşıl iqtisadiyyat" məsələlərinə dövlət səviyyəsində xüsusi önəm verilir. Ölkə ali təhsilinin flaqmanı olan BDU da yeni yanaşma ilə bu məsələdə öz töhfəsini verir. Bugünkü layihə həm Günəş, həm külək enerjisindən istifadə etməklə BDU əməkdaşları və təhsilalanları üçün təmiz ekoenerjidən istifadə imkanları yaradır.

Rektor diqqətə çatdırıb ki, "Clean-Charge" AC enerji doldurma stansiyası" adlı layihə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən keçirilən KOB-ların təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi ilə bağlı 5-ci qrant müsabiqəsinin qalibi olub. Bu, BDU-nun KOBİA ilə elm, təhsil, innovasiya sahəsində səmərəli, uğurlu əməkdaşlığının bir nümunəsi olmaqla yanaşı, BDU-nun BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə əməl edilməsi yolunda atdığı addımlardan biridir. BDU-da açılan EkoEnerji Məntəqəsi "yaşıl enerji"dən istifadə etməklə fəaliyyət göstərəcək, tədris prosesində də bu məntəqədən istifadə olunacaq.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov rəhbərlik etdiyi qurum üçün innovasiya yönümlü layihələrin dəstəklənməsinin prioritet olduğunu bildirib. O, KOBİA ilə BDU arasında imzalanan əməkdaşlıq memorandumunun uğurla icra olunduğunu qeyd edib. Agentlik sədri "Clean-Charge" AC enerji doldurma stansiyasının yaradılması layihəsi üçün KOBİA tərəfindən 20 min manata yaxın qrant ayrıldığını vurğulayıb. Qeyd edilib ki, layihə Universitetin əməkdaşları, tələbələr və sahibkarlar üçün faydalı olacaq.

Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman müasir universitet quruculuğunda belə layihələrin həyata keçirilməsinin çox önəmli olduğunu diqqətə çatdırıb. O bidlirib ki, ali təhsil sahəsində dövlət qurumları ilə yanaşı, özəl qurumların maliyyələşmə mexanizmlərinin də olması mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə nazirlik elm və təhsil sahəsində cəmiyyət üçün faydalı layihələrə dəstəyi daha da artırmaq niyyətindədir. Nazirliyin şöbə müdiri yeni layihənin təhsil prosesinə inteqrasiya olunmasının vacib məqam olduğunu vurğulayıb.

Layihə rəhbəri, BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibov deyib ki, məqsəd elektrik enerjisinin bərpa olunan enerji qaynaqlarından alınması ilə karbon emissiyasının azaldılmasına xidmət etməkdir: "Stansiyasının ümumi gücü 22 kv saatdır. Layihənin məqsədi elektromobillərin sürətli və ekoloji təmiz elektrik enerjisi ilə doldurulması nəticəsində sıfır karbon emissiyası ilə təbiəti qorumaq və Dayanıqlı İnkişaf Məqsədlərinə riayət etməkdir".

Elektromobillərin tanınması və şarj texnologiyaları istiqamətində fəaliyyət göstərən bloger İlkin Mustafayev layihənin önəmini qeyd edib, bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsal edən stansiyaların sayının çoxaldılmasının zəruri olduğunu diqqətə çatdırıb.

Sonra EkoEnerji Məntəqəsində elektromobilin şarj olunma prosesi əyani olaraq iştirakçılara nümayiş etdirilib.

# BDU rektorunun müşaviri ICESCO forumunda beynəlxalq paneldə çıxış edib

*Panel çərçivəsində ali təhsilin beynəlxalq standartlara inteqrasiyası prosesində milli dəyərlərin qorunması, ənənəvi dəyərləri özündə saxlayan kurikulum modellərinin qurulması, keyfiyyət təminatı və qarşılıqlı tanınma mexanizmləri müzakirə olunub.*






***İyunun 24-də Mərakeş Krallığının Rabat şəhərində İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı ICESCO-nun və Pakistanın Ali Təhsil Komissiyasının təşkilatçılığı, BDU-nun tərəfdaşlığı ilə keçirilən "İslam dünyası universitetlərinin 6-cı prorektorlar forumu" ("6th Vice Chancellors' Forum of Universities in the Islamic World" - VC Forum 2025) çərçivəsində "İslam dünyasında ali təhsilin yenidən təşkili: İnnovasiya, davamlılıq və qlobal təsir" mövzusunda panel müzakirəsində BDU-nu rektorun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova təmsil edib.***

Panel çərçivəsində ali təhsilin beynəlxalq standartlara inteqrasiyası prosesində milli dəyərlərin qorunması, ənənəvi dəyərləri özündə saxlayan kurikulum modellərinin qurulması, keyfiyyət təminatı və qarşılıqlı tanınma mexanizmləri müzakirə olunub.

Şəbnəm Səfərova çıxışında son illərdə BDU-nun inkişaf istiqamətləri barədə məlumat verərək qeyd edib ki, ali təhsil müəssisəsi beynəlxalq əməkdaşlıq, rəqəmsal və yaşıl transformasiya, eləcə də elmi tədqiqat sahələrində mühüm irəliləyişlərə nail olub. Universitetin nüfuzlu beynəlxalq reytinq cədvəllərində – QS sıralamasında 688-ci pillədə qərarlaşaraq Cənubi Qafqaz regionu üzrə birinci yeri tutması və THE (Times Higher Education) reytinqində dünyanın ən yaxşı 600 universiteti arasında yer alması BDU-nun qlobal elm və təhsil məkanına inteqrasiyasının göstəricisidir.

Rektorun müşaviri çıxışında vurğulayıb ki, qloballaşma prosesində İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr ənənəvi yanaşmaları qoruyub saxlamaqda maraqlıdırsa, bu kontekstdə ali təhsil müəssisələri arasında diplomların qarşılıqlı tanınması, ortaq keyfiyyət təminatı çərçivəsinin yaradılması, birgə rəqəmsal platformaların formalaşdırılması, eləcə də tələbə və müəllim mobillik proqramlarının genişləndirilməsi kimi təşəbbüslər xüsusi əhəmiyyət kəsb edir.

Panelin sonunda Şəbnəm Səfərova qeyd edib ki, ali təhsil yalnız bilik ötürən deyil, eyni zamanda gələcəyin mənəvi və intellektual konturlarını formalaşdıran mühüm təsir vasitəsidir. Bu baxımdan İslam dünyasının universitetləri qloballaşma prosesində iştirakla yanaşı, universal dəyərlərin daşıyıcısı və formalaşdırıcısı rolunu da yerinə yetirməlidirlər.

# Qəhrəmanlıq və şərəf bayramı

***Azərbaycanın dövlətçiliyinin və təhlükəsizliyinin qarantı olan Müzəffər Ordumuz bu gün dünyanın ən güclü orduları sırasında yer almaqla yanaşı, regionda sülhün, sabitliyin qorunmasında mühüm rol oynayır.***

107 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 26 iyun 1918-ci il tarixli qərarı ilə ölkəmizdə ilk Əlahiddə Azərbaycan Korpusu yaradılıb, bununla Azərbaycan Silahlı Qüvvələrinin təməli qoyulub. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ordu quruculuğuna yenidən başlanılıb. Ölkəmizdə bütün sahələrin inkişafı kimi, peşəkar, nizami ordu quruculuğu və vahid komandanlığın yaradılması da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün, yəni, 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub.

2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən, Ulu Öndər Heydər Əliyevin siyasi varisi, layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində sürətli inkişafa, davamlı tərəqqiyə nail olunub.

Ulu Öndərin uzaqgörənliklə formalaşdırdığı və Müzəffər Ali Baş Komandan İlham Əliyevin məharətlə rəhbərlik etdiyi Azərbaycan Silahlı Qüvvələri özünün ən şərəfli missiyasını Vətən müharibəsində yerinə yetirdi və 30 il davam edən işğala 44 gün ərzində son qoydu. 2023-cü ilin sentyabr ayında Ordumuzun lokal xarakterli antiterror əməliyyatı ilə isə Qarabağ iqtisadi rayonunda olan separatizm yuvası məhv edildi və milli suverenliyimiz bərpa olundu. Rəşadətli ordumuz tarixi ədaləti təmin etdi, müqəddəs üçrəngli bayrağımızı bütöv Azərbaycanda əbədi ucaltdı.

Artıq beş ildir 26 iyun – Silahlı Qüvvələr Gününü müzəffər ordu, qalib xalq olaraq ümumxalq bayramı kimi qeyd edirik. Xalqımıza bu zəfəri yaşadan şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, qazilərimizə cansağlığı diləyir, Vətənin müdafiəsində dayanan igid hərbçilərimizlə fəxr edirik.

Qalib Ordumuzun əsgər və zabitlərini, bütün xalqımızı bayram münasibətilə təbrik edirik.

Tanrı Azərbaycanımızı, Müzəffər Ali Baş Komandanımızı, qəhrəman Ordumuzu qorusun!

# Arif Tağıyevin 85 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib

***Sosial elmlər və psixologiya fakültəsində Fəlsəfə kafedrasının dosenti Arif Tağıyevin 85 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.***

Elmi seminarda dekan, dekan müavinləri, kafedra müdirləri və fakültənin professor-müəlli heyəti iştirak edib. Fakültə dekanı Rövşən Cavadov elmi seminarı açıq elan edərək Arif Tağıyevi yubiley münasibəti ilə təbrik edib, onun elmi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirib. O qeyd edib ki, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Arif Islam oğlu Tağıyev 26 may 1940-cı ildə Ordubad rayonunda anadan olub. 1958-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olub, 1970-ci ildə həmin fakültəni əla qiymətlərlə bitirdikdən sonra, 1971-ci ildə BDU-nun Fəlsəfə kafedrasına aspirant qəbul edilib. Professor Fuad Qasımzadənin rəhbərliyi ilə Arif



Tağıyev 1975-ci ildə "Dialektik inkişaf prinsipi və biologiyada nəzəri sintez" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Arif müəllim 1976-cı ildən Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının dosentidir.

Daha sonra Fəlsəfə kafedrasının müdiri Kəmalə Pənahova çıxış edərək Arif Tağıyevin elmi-pedaqoji fəaliyyəti haqqında ətraflı məlumat verib, onun bakalavr və magistr pillələrində əsas ixtisas fənlərini tədris etdiyini, "Müasir təbiətşünaslığın konsepsiyaları", "Antropologiya", "Fəlsəfə", "Ontologiya" dərsliklərinin müəllifi olduğunu qeyd edib.

O, vurğulayıb ki, A.Tağıyevin fəaliyyətinin mühim bir sahəsi də fəlsəfə klassiklərindən Platonun "Dövlət", Aristotelin "Politika" və "Metafizika", Hegelin "Ruh fəlsəfəsi", "Məntiq elmi", "Hüquq fəlsəfəsi" əsərlərini ilk dəfə ana dilimizə çevirməsidir. Kəmalə Pənahova daha sonra Arif Tağıyevin tərcümə etdiyi əsərlərə həm də iri həcmli şərhlər yazaraq, onları təhlil etdiyini bildirib. Arif Tağıyevin tədqiqat sahəsi fəlsəfə ilə təbiətşünaslığın, xüsusilə biologiyanın əlaqələri, eləcə də davamlı iqtisadi inkişaf strategiyası, dünyanın müasir təbii-elmi mənzərəsinin problemləridir.

Sonra Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimovanın hazırladığı videoçarx nümayiş olunub. Videoçarxda Arif Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş məlumatlar öz əksini tapıb. Elmi seminarda Sosial elmlər və psixologiya fakültəsinin elmi işlər üzrə dekan müavini Qızılgül Abbasova, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri Rəbiyyət Aslanova, Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev, Sosiologiya kafedrasının dosenti Hörmət Cavadova Arif Tağıyevi yubileyi münasibətilə təbrik ediblər.

Sonda Arif Tağıyev çıxış edərək elmi seminar iştirakçılarına minnətdarlığını bildirib. O, hazırda elmi tədqiqatlarını davam etdirdiyini və "Ruhun özünə səyahəti və ya insan nədir" monoqrafiyası üzərində işlədiyini söyləyib.

Sosial elmlər və psixologiya fakültəsinin çoxsaylı kollektivi Azərbaycanda fəlsəfə elminin inkişaf etməsində və bu sahədə kadrların hazırlanmasında böyük xidmətləri olan Arif Tağıyevə can sağlığı və elmi fəaliyyətində uğurlar arzulayıblar.

# BDU-nun həmtəşkilatçılığı ilə Qubada "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" III gənclər düşərgəsinin açılışı olub

***İyunun 27-də Gənclər və İdman Nazirliyi, Qərbi Azərbaycan İcması, BDU, "ASAN könüllüləri" təşkilatı və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Quba rayonunda "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" III gənclər düşərgəsinin açılışı olub.***



Düşərgə iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbir Azərbaycan respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Quba rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tariyel İbrahimov, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdir müavini Ülviyyə Axundova, Qərbi Azərbaycan İcmasının İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, "ASAN könüllüləri" təşkilatının sədri Anar Musaev və "Regional İnkişaf" İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Murad Qasımlı çıxış ediblər.

Çıxış edənlər tərəfindən qeyd olunub ki, bu gün Qərbi Azərbaycana qayıdış ideyası dövlətimiz və xalqımız üçün ümummilli mübarizə məramı daşıyır. Bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstəriş və tövsiyələrinə əsaslanaraq sülh, beynəlxalq hüquq və ədalət prinsipləri çərçivəsində sistemli və məqsədyönlü şəkildə davam etdirilir. Bildirilib ki, beynəlxalq ictimaiyyətin ölkəmizin bu sahədə haqlı və prinsipial mövqeyi barədə dolğun və obyektiv şəkildə məlumatlandırılması baxımından gənclərin fəal iştirakı mühüm əhəmiyyət kəsb edir. Çıxışlar zamanı gənclərin intellektual potensialının və bacarıqlarının Qərbi Azərbaycandan məcburi köçürülmüş soydaşlarımızın fundamental hüquqlarının bərpası yolunda səfərbər olunacağına dərin inam ifadə olunub.



Qeyd edək ki, Quba Olimpiya İdman Kompleksində iyunun 29-dək davam edəcək gənclər düşərgəsi çərçivəsində mövzu üzrə panel müzakirələr, məlumatlandırıcı sessiya, intellektual oyun və qrup işləri təşkil ediləcək, həmçinin Qərbi Azərbaycan həqiqətlərindən bəhs edən fotosərgi və film nümayiş olunacaq.

Layihənin məqsədi ölkəmizin müasir tarixinin aktual mövzuları, Qərbi Azərbaycan həqiqətləri ilə bağlı könüllülərin daha geniş məlumatlandırılması və onların proqram əsaslı işinin təşkil edilməsi, həmçinin Azərbaycan həqiqətlərinin yerli və beynəlxalq ictimaiyyət arasında mütəşəkkil yayılmasında könüllülərin fəallığının təşviq olunmasıdır.

# BDU-nun həmtəşkilatçılığı ilə Qubada "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" adlı III gənclər düşərgəsi başa çatıb



*İyunun 30-da Gənclər və İdman Nazirliyi, Qərbi Azərbaycan İcması, Bakı Dövlət Universiteti, "ASAN könüllüləri" təşkilatı və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Quba rayonunda "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" adlı III gənclər düşərgəsi başa çatıb.*

Düşərgənin son günündə "Regional İnkişaf" İctimai Birliyinin əməkdaşı Fuad Adgözəlov tərəfindən iştirakçıların ünsiyyət, əməkdaşlıq və liderlik bacarıqlarını inkişaf etdirmək məqsədilə "NASA Case" intellektual oyunu keçirilib.

Daha sonra Quba Soyqırım Memorial Kompleksinə ekskursiya təşkil olunub. İştirakçılar burada 1918-ci ildə erməni silahlı dəstələri tərəfindən Qubada və ətraf ərazilərdə törədilmiş soyqırım hadisələri, kütləvi məzarlıqlar və memorial kompleksdə sərgilənən tarixi eksponatlar haqqında məlumatlandırılıb.

# “BDU könüllüləri” təşkilatının sədri gənclər və idman naziri ilə görüşdə süni intellekt etikasına dair layihəni təqdim edib



*İyunun 2-də gənclər və idman naziri Fərid Qayıbov gənclər təşkilatlarının rəhbər və nümayəndələri ilə görüşüb.*

Gənclər və İdman Nazirliyi və nazirliyin yanında İctimai Şuranın birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində keçirilən görüşdə çıxış edən “BDU könüllüləri” təşkilatının sədri Nərmin Heydərova təşkilatın Universitet daxilində və ölkənin ictimai həyatındakı fəaliyyəti barədə məlumat verib. O, təşkilatın “Süni intellekt etikası məktəbi” layihəsini təqdim edib. Bildirib ki, Prezident İlham Əliyevin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası” əsasında hazırlanan layihə türk dünyasından olan tələbə və gəncləri bir araya gətirmək, süni intellektin etik aspektləri üzrə bacarıqları inkişaf etdirmək, etik qərarvermə qabiliyyətini gücləndirmək, gənclər arasında qarşılıqlı təcrübə və bilik mübadiləsi yaratmaq, süni intellektin cəmiyyətə təsiri ilə bağlı maarifləndirməni artırmaq, regionlararası əməkdaşlıq və dialoq mühitini təşviq etmək məqsədi daşıyır. Nərmin Heydərova xatırladıb ki, qeyd olunan məsələlərin elmi səviyyədə araşdırılması, təhlili və həlli üçün 2024-cü ildə Universitetin Elmi Şurası BDU-da Süni intellekt etikası kafedrasının yaradılması ilə bağlı qərar qəbul edib.

# BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İstanbul Gedik Universitetinin tədqiqat imkanları ilə tanış olub



*İyunun 3-də BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibov Türkiyənin İstanbul Gedik Universitetində olub.*

Səfərin məqsədi İstanbul Gedik Universitetinin mühəndislik istiqamətindəki tədris və tədqiqat potensialı haqqında ətraflı məlumat əldə etmək, Texnologiya Transfer Ofisinin fəaliyyəti ilə tanış olmaqdır.

Səfər çərçivəsində İlyas Nəsibov İstanbul Gedik Universitetinin Texnologiya Transfer Ofisinin müdiri Engin Açıkalın, Mexatronika mühəndisliyi kafedrasının müdiri Egemen Sulukanla görüşüb. Görüşdə BDU əməkdaşı Universitetin tarixi, fakültələri, laboratoriyaları, tədqiqat mərkəzləri, dünya reytinq siyahılarında yeri, son illərdə texnologiya və startap yarışmalarında qazandığı uğurları haqqında məlumat verib, Texnologiya Transfer Ofisinin tələbələrə yaratdığı iş imkanları ilə tanış olub.

Qeyd edək ki, İstanbul Gedik Universiteti 1963-cü ildən fəaliyyət göstərən “Gedik Holding” tərəfindən yaradılıb. Müxtəlif təyinatlı sənaye və laboratoriya cihazlarının istehsalı ilə məşğul olan şirkət hazırda 140 növdən artıq məhsul istehsal edərək, dünya ölkələrinə satış həyata keçirir. Şirkətə aid istehsalat müəssisələrində İstanbul Gedik Universitetinin tələbələri öz ixtisaslarına uyğun təcrübəkeçmə proqramına daxil edilir, tələbəlik illərindən işlə təmin olunurlar.

# BDU-da elmi seminar: “Tədrisin informasiya təminatında məktəb kitabxanalarının rolu”

*İyunun 3-də İnformasiya və sənəd menecmenti fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Tədrisin informasiya təminatında məktəb kitabxanalarının rolu” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı Aynur Ələsgərova məruzə edib.*

Gənc tədqiqatçı məktəb kitabxanalarının tarixən formalaşması, inkişaf mərhələləri, onların təhsil prosesindəki rolu barədə məlumatları diqqətə çatdırıb. “Kitabxana işi haqqında” qanunda kitabxanaların elm, təhsil, tərbiyə, mədəniyyət, informasiya funksiyalarını yerinə yetirən sosial institut kimi təsbit olunduğunu bildirən məruzəçi məktəb kitabxanalarının bu istiqamətlərdəki rolundan bəhs edib. Onların şagirdlərin tədris və tərbiyə prosesində, eləcə də mütaliə vərdişlərinin formalaşmasında da mühüm rol oynadığını vurğulayıb.

Araşdırmada tədrisin informasiya təminatında aparıcı rola malik olan məktəb kitabxanalarının müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində təşkili, kitabxana fondlarının rəqəmsal resurslarla zənginləşdirilməsi, şagirdlərin informasiya axtarışı bacarıqlarının davamlı inkişaf etdirilməsi, onlarda müstəqil öyrənmə vərdişlərinin formalaşması, məktəb kitabxanalarının informasiya resurslarının idarə edilməsi kimi istiqamətlər tədqiq edilib, bütün bunların tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərdiyi vurğulanıb. Məruzədə həmçinin məktəb kitabxanalarının strukturu, potensialı, hədəfləri, kitab fondu, komplektləşdirilmə mənbələri, məktəb kitabxanalarında təşkil edilən müxtəlif tədbirlər barədə məlumatlar diqqətə çatdırılıb.

Elmi seminarın sonunda mövzu ilə bağlı suallar cavablandırılıb.

# BDU-nun əcnəbi tələbələri Gəncəyə səfər ediblər

*İyunun 3-də BDU-nun əcnəbi tələbələri Filologiya fakültəsinin ingilis dili müəllimi Gülşən Məhərrəmovanın rəhbərliyi ilə Gəncə şəhərinə səfər ediblər.*

Tarixi və mədəni zənginliyi ilə seçilən Gəncəyə səfərin məqsədi müxtəlif ölkələrdən olan tələbələr arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi və həmrəyliyin təşviq olunması olub. Səfərdə BDU-nun İndoneziya, İraq, Türkiyə, Çad, Komor adaları və Tailanddan olan tələbələri iştirak ediblər.

Səfər zamanı tələbələr “İmamzadə” dini kompleksi, Gəncə qala qapıları - Arxeologiya və Etnoqrafiya Muzeyi, Nizami məqbərəsi və muzeyi, Cavad xan məqbərəsi, Xan bağı, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə bazarı, Göygöl kimi tarixi və mədəniyyət obyektlərini ziyarət ediblər. Əcnəbi tələbələr Gəncənin zəngin tarixi ilə tanışlığın mədəniyyətlərarası əməkdaşlıq və tələbə həyatının zənginləşdirilməsi istiqamətində atılan mühüm addım olduğunu vurğulayıblar.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin 10 şagirdi Məktəblilərarası Fənn Müsabiqələrinin qalibidir

*BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdləri mayın 31-də keçirilmiş Məktəblilərarası Fənn Müsabiqələrinin finalında böyük uğura imza atıblar.*

Belə ki, liseyin şagirdləri Nuran Əsgərli müsabiqədə Riyaziyyat fənni üzrə I, Ruqiyyə Sadıqlı, Tamerlan Heydərov, Akif Qurbanov, Mehman Qulizadə II, Həsən Süleymanov, Ağasəlim Musayev III yerə layiq görülüblər.

Təbiət fənni üzrə isə Zəhra Səlimzadə I, Əli Xudiyev və Tuncay Şirinli III yeri qazanıblar.

Qeyd edək ki, sözügedən müsabiqə VI-VII sinif şagirdləri arasında təşkil olunub. Müsabiqənin keçirilməsində məqsəd şagirdlərdə fənlərə olan marağın artırılması, istedadlı şagirdlərin erkən yaşlarda aşkar olunması, onların elmi düşüncə bacarıqlarının inkişaf etdirilməsi və gələcəkdə uğurlu təhsil və karyera planlamalarına dəstək göstərilməsidir.

Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# BDU-nun “Gənc istedadlar” liseyinin şagirdlərinin Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasında böyük uğuru

*BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdləri Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasında böyük uğura imza atıblar.*

Liseyin şagirdləri Zəhra Yahyayeva, Əli Əmiraslanov gümüş, Zeynəb Əzizli, Ömər Həsən və Nuran Sofiyev bürünc medala layiq görülüblər.

Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# BDU-da Xalq şairi Qabilə həsr olunmuş elmi seminar



***İyunun 10-da İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Xalq şairi Qabilin əsərlərinin nəşr tarixi” mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının magistrantı Nigar Məmmədova məruzə edib. Məruzəçi bildirib ki, Xalq şairi Qabil XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biridir. Dərin poetik tutumu, orijinal ifadə tərzi, rəngarəng obrazlar sistemi ilə seçilən şair poeziyamızın inkişafına xüsusi töhfələr verib: “Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev həmişə Qabilin yaradıcılığını yüksək qiymətləndirib, görkəmli şairi dövlətimizin ali mükafatları ilə təltif ediblər”.

Qabilin zəngin ədəbi irsinin nəşr tarixindən bəhs edən məruzədə bildirilib ki, şairin “Gəl baharım” adlı ilk şeiri 1944-cü ildə “Ədəbiyyat və incəsənət” qəzetində dərc olunub. “Səhər açılır” adlı ilk şeirlər kitabı isə 1950-ci ildə nəşr edilib: “Qabilin yaradıcılığının ilk dövrlərində nəşr edilən “Mənim mavi Xəzərim”, “Küləkli havalarda”, “Qoy danışsın təbiət”, “Vətəndaş sərnişinlər” kitabları geniş oxucu auditoriyası tərəfindən rəğbətlə qarşılanıb”.

Məruzədə Qabilin ədəbi irsinin nəşr tarixi mərhələlər üzrə araşdırılıb. Sovet dövrü və müstəqillik illərində ədibin nəşr edilmiş kitabları dil-üslub xüsusiyyətləri, redaktə məsələləri və bədii tərtibat baxımından tədqiqata cəlb olunub. Şairin müxtəlif illərdə və ayrı-ayrı nəşriyyatlar tərəfindən çap olunan kitablarının müqayisəli təhlilləri aparılıb. Qeyd olunub ki, Xalq şairi Qabilin əsərləri Azərbaycanda estetik fikrin, milli düşüncənin, kitab nəşrinin, kitab mədəniyyətinin və oxucu zövqünün inkişafında mühüm əhəmiyyətə malikdir.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU-da “Rəqəmsal əsrdə universitet kitabxanaları:beynəlxalq resurslar və repozitoriyalar” mövzusunda seminar





***İyunun 12-də BDU-da Elmi Kitabxananın metodik fəaliyyəti və Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) illik hesabatına həsr olunmuş “Rəqəmsal əsrdə universitet kitabxanaları: beynəlxalq resurslar və repozitoriyalar” mövzusunda seminar keçirilib.***

Respublika ali məktəb kitabxanalarının metodiki mərkəzi və Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) rəhbəri olan BDU-nun Elmi Kitabxanası tərəfindən hər il mütəmadi keçirilən seminarda ölkənin bir sıra region ali təhsil müəssisələri və dövlət qurumlarının kitabxana rəhbərləri də daxil olmaqla 80-dən çox əməkdaş iştirak edib.

Seminarda açılış nitqi üçün çıxış edən BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov müasir dövrdə elm və təhsildə məlumat bazalarının önəmi, onlara əlçatanlığın təmin edilməsi və tədqiqat potensialının inkişafında repozitoriyaların rolunun vacibliyindən danışıb.

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova “Elektron resurslara əlçatanlıqda korporativ abunəlik: problemlər və həll yolları” adlı məruzəsində korporativ abunəliyin əldə edilməsi yolları, üstünlükləri, üzvlük və ödəniş formaları, elektron resurslara korporativ abunəlik nümunələri haqqında söz açıb. BDU-nun korporativ abunəlik modeli ilə elektron resurslara əlçatanlıq fəaliyyəti təqdim olunub.

Elmi Kitabxananın Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri, EIFL.net üzrə milli əlaqələndirici, EBSCO-nun Azərbaycan üzrə təmsilçisi Cəmilə Yusifova isə “Beynəlxalq elmi platformalar və Az.KİK-in innovativ xidmətləri” adlı məruzə ilə çıxış edib. O, Az.KİK-in EIFL.net beynəlxalq kitabxana konsorsiumu ilə əlaqələri, fəaliyyət proqramları və istiqamətləri, konsorsium üzvlərinə təqdim olunan xidmətlər, “EBSCO”, “EBSCO EDS” (Electron Discovery Service) və “Kitabxanalar üçün süni intellekt” (EBSCO AI Insights) platformalarına əlçatanlığın təmin edilməsi məsələləri haqqında tədbir iştirakçılarına məlumat verib.

Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayeva məruzəsində elmi jurnalların EBSCO məlumat bazasına daxil edilməsi və müəllif hüquqları məsələlərindən söz açıb.

Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli təmsil etdiyi qurumun beynəlxalq layihələri, xüsusilə 3 Avropa ölkəsinin və respublikanın 8 ali təhsil müəssisəsinin kitabxanalarını özündə birləşdirən tədqiqat potensialının inkişafında institusional repozitoriyaların yaradılmasına həsr olunan layihənin əməkdaşlıq təcrübəsindən bəhs edib.

Seminarda Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Gəncə Dövlət Aqrar Universiteti və digər region ali təhsil müəssisələrinin kitabxanaları da onlayn şəkildə iştirak ediblər.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

# BDU-da qızılı stafilokok bakteriyasına qarşı müqavimət mexanizmlərinə dair araşdırmalar aparılır

***İyunun 11-də Biologiya fakültəsinin Biotibbi materiallar kafedrasında “Staphylococcus aureus: müasir tibbin qarşısında dayanan ciddi təhlükə” mövzusunda elmi seminar keçirilib.***

Məruzəçi, kafedranın müəllimi Aygün İsrayılova bildirib ki, qızılı stafilokok (staphylococcus aureus) bakteriyası hazırda insan sağlamlığı, qlobal səhiyyə üçün ən ciddi təhlükələrdən biri hesab olunur. Geniş spektrli infeksiyalara səbəb olan bu patogen antibiotiklərə qarşı davamlılığı ilə seçilir. Aparılan tədqiqatlara əsasən, S. aureus-un antibiotiklərə qarşı müqaviməti laktamazaların sintezi, metisillinə davamlılıqla (MRSA) əlaqəli olan mecA geninin əldə olunması, ribosomal RNT və ya DNT-dəki mutasiyalar nəticəsində hədəf sahələrinin dəyişməsi, eləcə də antibiotiklərin enzimatik inaktivasiyası kimi mexanizmlər vasitəsilə formalaşır.

Məruzəçi həmçinin bakteriya membranının strukturunda baş verən dəyişikliklərin daptomisin kimi güclü antimikrob agentlərə qarşı müqavimətin yaranmasına səbəb olduğunu deyib. Qeyd edib ki, bu kompleks rezistentlik mexanizmləri S. aureus-un müalicəsini çətinləşdirir və yeni, effektiv antimikrob strategiyaların inkişafını zəruri edir. Eyni zamanda, bu cür davamlı və rezistent ştammların sürətlə yayılması ictimai sağlamlıq üçün təhlükə yaradır və davamlı epidemioloji nəzarətin əhəmiyyətini bir daha gündəmə gətirir.

Seminarda daha sonra antibiotiklərin düzgün istifadəsi və elmi əsaslı yanaşmaların tətbiqinin infeksiyaların qarşısının alınmasındakı rolu müzakirə edilib.

# Pakistanın Quaid-i-Azam Universitetinin professoru Biologiya fakültəsində mühazirə deyib

***İyunun 23-də Pakistanın Quaid-i-Azam Universitetinin tanınmış professoru Muhammad Zafar Biologiya fakültəsində mühazirə oxuyub.***

Məruzəçi bitki tozcuqları, tozlanma prosesi və onların bioindikator kimi tədqiqi istiqamətində apardığı elmi tədqiqatlar barədə geniş təqdimatla çıxış edib. O, mikroskopik səviyyədə tozcuqlar üzərində aparılan silsilə tədqiqatlardan nümunələr təqdim edərək, bu sahədəki praktiki və nəzəri təcrübəsini bölüşüb.

Alim beynəlxalq elmi bazalarda yüksək reytinqli məqalələrin hazırlanması və nəşri ilə bağlı uğurlu təcrübəsini də paylaşıb, elmi işlərin keyfiyyətinin artırılması istiqamətində faydalı tövsiyələr verib və iştirakçıların suallarını cavablandırıb.

Görüşdə tərəflər arasında birgə tədqiqat və əməkdaşlıq imkanları da müzakirə olunub.

# Filologiya fakültəsində 25 il sonra keçirilən görüş

***İyunun 17-də Filologiya fakültəsinin 1996-2000-ci illərdə təhsil almış məzunları 25 ildən sonra doğma təhsil ocağında olublar. Onlar 25 il sonra Universitetin doğma dəhlizlərini gəzərək, mühazirə dərslərinin keçirildiyi auditoriyaları ziyarət edib, tələbəlik illərinə dair xatirələrini yada salıblar.***



Daha sonra məzunlar BDU-nun ərazisini gəzib, Universitetdə həyata keçirilən yeniliklərlə tanış olublar.

# BDU-da tədqiqatçılar üçün "Elsevier"in məlumat sessiyası təşkil olunub

***İyunun 3-də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə BDU-da beynəlxalq nüfuza malik "Elsevier" nəşriyyat şirkətinin rəsmi nümayəndəsi Saide Sakın iştirakı ilə "Tədqiqat yolunda uğura doğru: Elsevier sizə necə dəstək olur?" mövzusunda məlumat sessiyası keçirilib.***




Sessiyada iştirakçılara "Elsevier"in təqdim etdiyi "Scopus", "ScienceDirect", "Scopus AI" və "Mendeley" kimi qabaqcıl elmi alətlərdən tədqiqat prosesində səmərəli istifadə yolları barədə məlumat verilib. İştirakçılara effektiv axtarış üsulları, mövzu seçimi, müəllif və qurum profillərinin optimallaşdırılması, yüksək kvartilli jurnalların müəyyənləşdirilməsi, beynəlxalq elmi jurnallarda nəşrə hazırlıq mərhələləri və bu prosesdə "Scopus AI" süni intellekt alətlərinin tətbiq imkanları təqdim olunub. Həmçinin, "Elsevier" resurslarına çıxış və istifadəyə dair praktik tövsiyələr səsləndirilib.

Məlumat sessiyasında 100-dən çox tədqiqatçı iştirak edib. Sonda iştirakçılara elektron sertifikatlar təqdim olunub.

# Filologiya fakültəsinin məzunları 30 il sonra yenidən BDU-da

***İyunun 21-də Filologiya fakültəsinin 1990-1995-ci illərdə təhsil almış məzunları 30 ildən sonra yenidən qocaman təhsil ocağına toplaşıblar.***



Filologiya fakültəsinin dekan müavini Mehriban Əlizadə fakültənin 30 il öncəki məzunlarına tədris və elmi fəaliyyət istiqamətində əldə olunan nailiyyətlər barəsində məlumat verib. Fakültənin hər bir məzunu ilə daim fəxr etdiyini və xatırlandığını bildirib.

BDU-nun alimləri Zemfira Şahbazova, Qızılgül Abdullayeva, Vaqif Sultanlı, Tofiq Hacıyev, Boran Əziz, Sona Çərkəz, Nüşabə Sadıxlı, Etibar Talıblı, Vaqif Nəbiyev, Qənbər Xanməmmədov və İsmayıl Məmmədov tələbələri ilə yenidən görüşməkdən məmnun olduqlarını, keçmişin yalnız xatirələr deyil, həm də mənəvi irs olduğunu qeyd ediblər.

Məzunlar müəllimləri və tələbəlik illəri ilə bağlı xatirələrini bölüşüb, sonra BDU-nun ərazisini gəzib, Universitetdə həyata keçirilən yeniliklərlə tanış olublar.

# Türkiyənin Fırat Universitetinin nümayəndələri Filologiya fakültəsində

***İyunun 21-də Türkiyənin Fırat Universitetinin Təhsil fakültəsinin professoru, Texnoparkın baş direktoru Yalın Kılıç Türel və Müasir türk dilləri və ədəbiyyatları kafedrasının professoru Süleyman Kaan Yalçın Filologiya fakültəsində olublar.***

Türkologiya kafedrasında keçirilən görüşdə qonaqlarla tədris prosesində, o cümlədən humanitar elmlər sahəsində müasir texnologiyaların tətbiqi və süni intellektdən istifadə ilə bağlı müzakirələr aparılıb, texnoloji yeniliklərin filologiya elmləri üçün də mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Görüşdə türkoloji araşdırmalar sahəsində əməkdaşlıq məsələləri də müzakirə olunub.

Sonra qonaqlar BDU ilə elmi innovasiya və yüksək texnologiyalar sahəsində əməkdaşlıq çərçivəsində ortaq layihələrin və tədqiqatların aparılması məqsədilə Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar.

# BDU-da türkiyəli professor Nimet Yıldırımla görüş

***İyunun 2-də Şərqşünaslıq və Filologiya fakültələrinin və Bakı Yunus Emre İnstitutunun təşəbbüsü ilə Türkiyənin Atatürk Universitetinin professoru Nimet Yıldırımla görüş keçirilib. Görüşdə hər iki fakültənin professor-müəllim heyəti, Bakı Yunus Emre İnstitutunun rəhbərliyi və tələbələr iştirak ediblər.***

Əvvəlcə professor Nimet Yıldırımın həyatı və fəaliyyəti ilə bağlı məlumat verilib. Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan türkologiya elminin inkişafında BDU-da aparılan elmi tədqiqatların mühüm rol oynadığını, qardaş ölkə olan Türkiyə ilə elmi təmasların vacibliyini qeyd edib. O, nizamişünaslığın inkişafında və dahi Nizaminin əsərlərinin türk dünyasına tanıdılmasında professor Nimet Yıldırımın xüsusi xidmətlərinin olduğunu vurğulayıb.

Bakı Yunus Emre İnstitutunun koordinatoru Güvən Çolak BDU ilə məhsuldar əməkdaşlığın uğurla inkişaf etdiyini bildirib, belə görüşlərin hər iki ölkənin türkoloji tədqiqatlarına fayda verdiyini diqqətə çatdırıb.

Professor Nimet Yıldırım türk dünyasının qüruru olan Nizami Gəncəvi əsərlərinin çox az sayda türk dilinə tərcümə edildiyini və bu səbəbdən dünyaşöhrətli şairin qardaş ölkədə geniş tanıdılması və təbliğinə ciddi ehtiyac olduğunu qeyd edib. O bildirib ki, Nizami Gəncəvi əsərlərinin tərcüməsini həyata keçirmək olduqca çətin, şərəfli və məsuliyyətli işdir. Alim Nizami Gəncəvidən tərcümə etdiyi "Sirlər xəzinəsi" və "İsgəndərnamə" poemaları barədə geniş məlumat verib, onları dil, üslub baxımından təhlil edib. Görkəmli alim Nizaminin milli kimliyi, əsərlərində toxunduğu məsələlər, poemalarına yazılan nəzirələr, elmi-tənqidi mətnlərin qarşılaşdırılması, Nizami lüğətinin hazırlanması ilə əlaqədar da fikirlərini bölüşüb.

Şərqşünas-alim sonda iştirakçıların suallarını cavablandırıb.

# Filologiya fakültəsində özbək alimləri ilə görüş

***İyunun 3-də Filologiya fakültəsinin Türkologiya kafedrasında Özbəkistanın Daşkənd Dövlət Hüquq Universitetinin əməkdaşları Amina Fəttahova, Nilufər Bəhramova və Dilaron Raximova ilə görüş keçirilib.***

Nümayəndə heyətinin üzvü Dilaron Raximova "Qafur Qulam şeirlərində ictimai ümumiləşdirmələr" mövzusunda çıxış edib, böyük şairin yaradıcılığında yer alan ictimai motivlərə toxunub. Natiq çıxışı zamanı Qafur Qulamın şeirlərini özbək dilində səsləndirib, onların bədii-ictimai məziyyətlərindən bəhs edib.

Türkologiya kafedrasının professorları - kafedra müdiri Məhərrəm Məmmədov və Firuzə Ağayeva, dosentlər Qızılgül Abdullayeva, Kəmalə Nəcəfova, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev və BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Sevinc Məmmədova çıxışlarında Filologiya fakültəsində tanınmış özbək şairi Qafur Qulamın yaradıcılığının geniş tədris edildiyini vurğulayıb, özbək və Azərbaycan ədəbiyyatları arasında minilliklər boyu etnik-dini yaxınlıq və bağlılıqdan irəli gələn oxşarlıq, doğmalıq olduğunu bildiriblər.

Görüşdə Azərbaycan-Özbəkistan arasında siyasi-iqtisadi, elmi-mədəni və təhsil sahəsindəki sıx əməkdaşlıqdan danışılıb, hər iki universitetdə bu əlaqələrin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu qeyd olunub.

# BDU-nun şəhid məzunu Ataməli Musaoğlunun ailəsi ziyarət olunub

*İyunun 2-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Sosial elmlər və psixologiya fakültəsinin məzunu, Vətən müharibəsi şəhidi Ataməli Musaoğlunun ailəsini ziyarət edib.*



Ziyarət zamanı THİK üzvləri BDU-nun şəhid məzununun ailə üzvləri, o cümlədən övladı ilə görüşüb, hədiyyə və gül dəstələri təqdim ediblər.

Qeyd edək ki, Ataməli Musaoğlu 2012-2016-cı illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb. Psixoloq kimi fəaliyyət göstərən Ataməli Musaoğlu 2020-ci ildə könüllü olaraq ordu sıralarına qoşulub və oktyabrın 16-da Ağdərə rayonu istiqamətində gedən döyüşlərdə yaralı dostunu xilas edərkən düşmən snayperinin açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb. O, ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

# BDU-da “Qərbi Azərbaycan: real tarix və erməni saxtakarlığı” mövzusunda elmi seminar

*İyunun 4-də Tarix fakültəsinin təşkilatçılığı ilə “Qərbi Azərbaycan: real tarix və erməni saxtakarlığı” mövzusunda elmi seminar keçirilib.*

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Qərbi Azərbaycan məsələsinin artıq beynəlxalq gündəliyə salınaraq, prioritetə çevrildiyini bildirib. Qeyd edib ki, qərbi azərbaycanlıların qayıdışı reallaşana qədər bu məsələ ölkəmizin gündəliyindən çıxmayacaq. Bu istiqamətdə BDU-nun Tarix fakültəsi və Qərbi Azərbaycan İcmasının “Qərbi Azərbaycan: Yurd yerimizə sahib çıxaq” adlı birgə layihəsi mövcuddur. Layihə çərçivəsində Qərbi Azərbaycan tarixinin aktual problemlərinə həsr olunan elmi seminarlar, konfranslar və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Əsas məqsəd Qərbi Azərbaycanda kütləvi şəkildə dəyişdirilən bütün hidronim, mahal, kənd, şəhər və digər toponimlərin, erməni vandalizminə məruz qalmış və dağıdılmış dini, tarixi, milli abidələrin xəritələşdirilərək öz əvvəlki adı ilə ölkə və dünya ictimaiyyətinə çatdırılması, təbliğ olunmasıdır.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru, dosent Güntəkin Nəcəfli dövlətimizin bugünkü siyasi sərhədlərindən kənarda qalan böyük etno-siyasi coğrafiyamız - Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin və digər milli dəyərlərinin ermənilər tərəfindən saxtalaşdırılması və mənimsənilməsi məsələlərindən danışıb. O, Qərbi Azərbaycandakı tarixi yaddaşımızın bərpası üçün ermənidilli mənbə və ədəbiyyatların tədqiqatlara cəlb edilməsinin tarixşünaslığın qarşısındakı ən önəmli vəzifəyə çevrildiyini deyib: “Müasir Ermənistanın ərazisinin, Qərbi və Şərqi Zəngəzurun, Qarabağın dağlıq hissəsinin mənsubiyyəti məsələsinə qeyri-obyektiv yanaşma, bu torpaqların “əsrlər boyu ermənilərə məxsus olması”, “ermənilərin bu torpaqlarda çoxluq təşkil etməsi” kimi saxta iddialar əsrlərdir erməni tarixşünaslığının əsaslarına çevrilib. Onların yalanlarının geniş və sistemli şəkildə yayılmasında XVIII əsrin əvvəllərindən başlayaraq erməni mxitarist ordeninin xüsusi “xidməti” olub. Cəmiyyətin üzvləri “yenidən bərpa” adı ilə müxtəlif xalqların mifologiyasına əsaslanan “erməni əfsanələri”ni “tarixi mənbə” kimi təqdim edərək Venesiyada nəşr etdiriblər. Nəticədə isə “Hayların tarixi” adlanan kitablar bütün dünyaya “Ermənistan tarixi” kimi təqdim olunub. Bu, saxta tarixin zorla qəbul etdirilməsidir”.

Məruzə zamanı saxtalaşdırılmış erməni mənbələrindən nümunələr, arxiv sənədləri və digər faktoloji materiallar nümayiş etdirilib. Seminarda ölkəmizin hüdudlarından kənarda Qərbi Azərbaycan mövzusunda keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Bildirilib ki, bu cür fəaliyyətlərlə Azərbaycan xalqına qarşı zaman-zaman ermənilər tərəfindən törədilmiş soyqırımı və deportasiyalar konkret faktlarla, elmi əsaslarla geniş auditoriyaya çatdırılır.

# “Azərbaycan Dəmir Yolları” QSC BDU tələbələri üçün infosessiya keçirib

*İyunun 4-də Ekologiya və torpaqşünaslıq fakültəsinin təşkilatçılığı ilə “Azərbaycan Dəmir Yolları” (ADY) Qapalı Səhmdar Cəmiyyəti (QSC) 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə BDU tələbələri üçün infosessiya keçirib.*

Tədbir gənc nəslin ekoloji şüurunun artırılması və “yaşıl nəqliyyat” sahəsində maarifləndirilməsi məqsədilə təşkil edilib.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı son illər ölkəmizdə müxtəlif təşkilatlar tərəfindən ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən innovativ layihələrdən danışaraq, bu istiqamətdə ADY-nin xüsusi payının olduğunu bildirib. O, Ekologiya və torpaqşünaslıq fakültəsi ilə ADY-nin əməkdaşlığının uğurla davam etdiyini, mütəmadi infoekskursiya və infosessiyalar təşkil olunduğunu vurğulayıb.

ADY-nin Ətraf mühitin mühafizəsi şöbəsinin müdiri Humay Abdullayeva nəqliyyatın ətraf mühitə təsiri və dəmir yollarının ekoloji üstünlükləri, nəqliyyat sektorunun istixana qazı emissiyalarındakı rolu, Azərbaycanda dəmir yolunun dekarbonizasiya potensialı, iqlim dəyişikliyinə qarşı emissiyaların azaldılması, ADY-nin Biləcəri yuyucu-buxarlayıcı sahəsində həyata keçirilən innovativ yeniliklər barədə təqdimat edib. O, alternativ enerji mənbələrindən istifadənin tətbiqi, elektrikləşdirilmiş nəqliyyat infrastrukturunun genişləndirilməsi, dəmir yolu nəqliyyatında kağız tullantıların azaldılması, tullantıların idarə olunması, ISO 14001: 2015 standartının tətbiqinin fayda və üstünlükləri haqqında da iştirakçıları məlumatlandırıb.

Sonda tələbələrin sualları cavablandırılıb, mövzu ilə bağlı müzakirələr aparılıb.

# BDU-nun magistrantı Mançester Universitetinin doktorantura proqramına qəbul olunub

*İyunun 2-də Biologiya fakültəsinin magistrantı, beynəlxalq ikili diplom proqramının iştirakçısı Edqar Şahbazov Böyük Britaniyanın nüfuzlu ali təhsil müəssisələrindən olan Mançester Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsinin “Molekulyar biologiya” ixtisası üzrə doktorantura proqramına qəbul olunub.*

Edqar Şahbazov “2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində BDU ilə İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında “Biotexnologiya” ixtisaslaşması üzrə həyata keçirilən beynəlxalq ikili diplom proqramının tələbəsidir.

Gənc tədqiqatçının doktorantura mərhələsində araşdıracağı “Qocalmanın qarşısını alan RBBP5 faktorunun mitoxondrial tarazlığın qorunmasında yeni rolu” mövzusu Mançester Universitetinin tanınmış alimləri Gino Poulin və Alan Whitmarshın elmi rəhbərliyi altında universitetin laboratoriyalarında həyata keçiriləcək.

Qeyd edək ki, BDU və HUJI arasında həyata keçirilən ikili diplom proqramı beynəlxalq səviyyədə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına xidmət edir.

# BDU Bakı Enerji Həftəsində təmsil olunur



*İyunun 4-də BDU özündə üç mötəbər tədbiri - 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi “Caspian Power” və 30-cu Yubiley “Baku Energy Forum”u birləşdirən Bakı Enerji Həftəsində təmsil olunub.*

Bakı Enerji Həftəsi çərçivəsində təqdim olunan "Smart Energy Hub" adlı xüsusi startap zonasında yerli və xarici ölkələrdən olan 10 startap layihəsi təqdim edilib. Bu zona startapçılara öz qabaqcıl həllərini və strategiyalarını enerji sahəsinin aparıcı şirkətləri və digər maraqlı tərəflərə təqdim etmək üçün unikal imkan yaradır.

BDU üçün ayrılmış stenddə Universitet ərazisində qurulan şarj stansiyası və bu stansiyanın funksiyaları nümayiş etdirilib. Bərpaolunan enerji (Günəş və külək enerjisi) hesabına elektromobillərin sürətli şarjını təmin edən stansiyanın elektromobillər üçün CCS2 və GBT standartlarında şarj imkanı təmin edəcəyi qeyd edilib. Universitet ərazisində yerləşən bu stansiya gələcəkdə Universitet tələbələri tərəfindən istifadə olunan elektrikli velosipedlər və skuterlər üçün də yaşıl enerji hesabına şarj imkanı yaradacaq.

Qeyd edək ki, təşkil edildiyi illər ərzində regional və beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşan Bakı Enerji Həftəsi bu il 39 ölkədən 267 şirkəti qəbul edir.

# BDU tələbələrinin "Ezop" tamaşası "Pillə-3" Respublika Tələbə Tamaşaları Festivalının qalibidir

***BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin tələbələrin iştirakı ilə səhnələşdirdiyi "Ezop" tamaşası Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Pillə-3" universitetlər arasında Respublika Tələbə Tamaşaları Festivalında böyük uğur qazanıb.***




İyunun 2-də festivalın bağlanış və mükafatlandırma mərasimi keçirilib. Festivalda müxtəlif ali təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə 19 tamaşa nümayiş olunub. BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin tələbələrin iştirakı ilə səhnələşdirdiyi "Ezop" tamaşası "Ən yaxşı tamaşa" nominasiyasında festivalın qalibi olub.

Tamaşanın quruluşçu rejissoru BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin rejissoru Vahid Orucoğludur. Tamaşada rolları Universitetin tələbələri Hüseyn Cabbarlı, Fidan Sultanova, Ramazan Ramazanzadə, Nuran Atakişiyev, Rəna Əsədova və Murad Qəmbərov ifa ediblər.

"Ezop" tamaşası dünya ədəbiyyatının klassik simalarından biri olan Ezopun həyatına və onun məşhur fəlsəfi hekayələrinə əsaslanaraq səhnəyə qoyulub. Qədim yunan təmsil ustası Ezopun (e.ə. VI əsr) qısa, lakin dərin mənalı hekayələri əsrlər boyu insanlara həyat dərsi verib.

Əsərlərində heyvan obrazlarından istifadə etməklə insan xarakterini, cəmiyyətin zəif və güclü tərəflərini ustalıqla tənqid edən Ezopun "Tülkü və Üzüm", "Qurd və Quzu", "Qarğa və Küp" kimi məşhur hekayələri bu gün də öz aktuallığını qoruyub saxlayır.

# BDU Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş festivalda iştirak edib

***İyunun 2-də BDU 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş festivalda iştirak edib.***



Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi və Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə baş tutan festivalda müxtəlif maraq dairələrinə uyğun əyləncə zonaları yaradılıb.

BDU, "Azərkosmos" və Həvəskar Astronomlar Cəmiyyəti uşaqlar üçün teleskopla müşahidə tədbiri təşkil edib. Festivalda iştirak edən 100-dən çox azyaşlı və ailə üzvləri "Şmidt-Kasseg-ren" teleskopu ilə Günəşi, günəş ləkələrini və yerin peykini müşahidə edib, kosmos, astronomiya, ulduzlar və planetlər haqqında məlumat alıblar.

## BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri Respublika Fənn Olimpiadalarında 7 medal qazanıblar

***İyunun 24-də Bakı Konqres Mərkəzində Respublika Fənn Olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.***




BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 7 şagirdi də mükafatlandırılanlar arasında olub.

Liseyin şagirdləri Respublika Fənn Olimpiadalarında yüksək nəticə göstərərək, bir qızıl və bir gümüş olmaqla 7 medal qazanıblar. Liseyin VIII sinif şagirdləri Alikamal Həsən Riyaziyyat fənni üzrə qızıl, Fidan Həşimova Kimya, Sulduz Hacıyev Riyaziyyat, X sinif şagirdləri Emilya Ağayeva Azərbaycan dili və ədəbiyyatı, Yusif İbrahimzadə Fizika, Elman Kərimli və Cabir Abbasov Kimya fənləri üzrə gümüş medala layiq görülüblər.

Qeyd edək ki, "Gənc istedadlar" liseyi bu il Respublika Fənn Olimpiadaları üzrə qalib sayı baxımından ölkənin ən yaxşı təhsil müəssisələri sırasında ilk onluqda yer alır.

Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# BDU THİK-in üzvləri Qadın və Uşaq Sığınacağı Reabilitasiya və Reinteqrasiya Mərkəzini ziyarət ediblər

***İyunun 2-də BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Sevgi evi" Qadın və Uşaq Sığınacağı Reabilitasiya və Reinteqrasiya Mərkəzinə ziyarət həyata keçirilib.***

Ziyarət çərçivəsində tələbələr tərəfindən uşaqlara müxtəlif hədiyyələr təqdim olunub, onlarla səmimi söhbətlər aparılıb və mənəvi dəstək göstərilib.

# "PAŞA Holding" BDU tələbələri üçün təlim keçirib

***İyunun 2-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə "PAŞA Holding" MMC-nin əməkdaşı Bəyim İbrahimovanın Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri üçün "Dövlət qurumları ilə əlaqələr və korporativ sosial məsuliyyət" adlı təlim keçirilib.***

Təlimçi bildirib ki, "Korporativ sosial məsuliyyət" (KSM) anlayışı şirkətin həm özünə, həm maraqlı tərəflərə, həm də cəmiyyətə qarşı məsuliyyətli davranışa təşviq edən və dayanıqlı inkişafı dəstəkləyən biznes modelidir. Həmin modelin prinsiplərini tətbiq edən şirkətlər cəmiyyətin bütün sahələrinə göstərdikləri müsbət təsirin fərqində olurlar. Bu model nəticə etibarı ilə təkcə qanunvericilik tələblərinə riayət etməklə kifayətlənmir, həm də ümumi ictimai rifah naminə atılan addımları əhatə edir.

Bəyim İbrahimova KSM modelləri - iqtisadi, ekoloji, etik və filantropik məsuliyyət haqqında, həmçinin şirkət daxilində KSM-in əsas məqsədləri - müsbət brend imici formalaşdırmaq, müştəri bazasını genişləndirmək, bacarıqlı kadrları cəlb etmək və innovasiyaları təşviq etmək barədə ətraflı məlumat verib. O, eyni zamanda KSM strategiyası, beynəlxalq təcrübələr, dövlət qurumları ilə əməkdaşlıq və departamentin fəaliyyət sahələri - təhsilə dəstək, sağlamlıq, ətraf mühitin mühafizəsi, cəmiyyətin rifahı və qadınların gücləndirilməsi barədə də danışıb.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# BDU-nun komandası "Enactus Çempionlar Liqası"nda ikinci yerin qalibi olub

***BDU-nun komandası 13-15 iyun tarixlərində Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının dəstəyi, "Enactus Azərbaycan"ın təşkilatçılığı ilə keçirilən "Enactus Çempionlar Liqası Simulyasiya Düşərgəsi" çərçivəsindəki yarışda yüksək nəticə göstərib.***

Belə ki, BDU-nun "Enactus" komandası 18 ali təhsil müəssisəsinin komandaları arasında II yerə layiq görülərək, "Enactus Azərbaycan" Milli Yarışına vəsiqə qazanıb.

Qeyd edək ki, "Enactus" proqramının əsası 1975-ci ildə ABŞ-də qoyulub. Bu beynəlxalq platforma biznesin müsbət gücündən istifadə edərək, daha yaxşı və davamlı gələcək qurmağa çalışan tələbələri, akademikləri və biznes liderlərini bir araya gətirir. "Enactus" dünyanın 35-dən çox ölkəsində fəaliyyət göstərən geniş və fəal qlobal şəbəkədir.

# Bu il BDU-nu 6000-dən çox təhsilalan bitirir

***2024/2025-ci tədris ilində Bakı Dövlət Universitetini 6000-dən çox təhsilalan bitirir. Ümumilikdə fəaliyyət göstərdiyi dövr ərzində BDU 200 min nəfərdən artıq mütəxəssis və yüksək ixtisaslı kadr yetişdirib.***

BDU-da hazırda 16 fakültədə 1500 nəfərlik professor-müəllim heyəti çalışır, 25000-dən çox tələbə təhsil alır.

Universitetdə 120 kafedra, 2 elmi-tədqiqat institutu, 6 elmi-tədqiqat mərkəzi, 5 muzey, Qazax filialı, İqtisadiyyat və Humanitar Kollec və "Gənc istedadlar" liseyi fəaliyyət göstərir.

Bakalavr səviyyəsində 75 ixtisas, magistratura səviyyəsində 243 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

(əvvəli 1-ci səhifədə)

# Milli Gimnastika Arenasında BDU-nun möhtəşəm Məzun Günü





***Bakalavr səviyyəsində 75 ixtisas, magistratura səviyyəsində 243 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Hazırda BDU yüksəkixtisaslı kadrlar yetişdirməklə ölkəmizdə insan kapitalının formalaşmasına və zənginləşməsinə xidmət göstərmək, Vətənimizin dünya elm, təhsil və mədəniyyət məkanında layiqli yer tutmasını təmin etmək kimi ali missiyasını şərəflə yerinə yetirir.*** Hazırda universitetdə tədris prosesi tarixi ənənələrin və modern dünya təcrübəsinin vəhdəti, innovativ təlim texnologiyaları əsasında qurulur. Elmi araşdırmalar müasir tələblərə uyğun şəkildə aparılır, tədqiqat işlərinin məzmunu daim yenilənir. BDU ölkənin nüfuzlu şirkətləri, iri sənaye müəssisələri, dövlət təşkilatları, ictimai qurumları ilə əməkdaşlığı inkişaf etdirir, dünyanın aparıcı universitetləri – Türkiyə, Çin, Pakistan, Qazaxıstan, Özbəkistan və s. kimi ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə ikili diplom proqramı əsasında kadr hazırlığını uğurla həyata keçirir.

BDU dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri hesab olunan “QS Quacquarelli Symonds” agentliyinin “QS World University Rankings” reytinqində böyük tarixi uğura imza atıb. Dünya universitetləri arasında ilk 700-lüyə daxil olub, 688-ci sırada qərarlaşıb. Bu nəticə ilə təkcə ölkəmizdə deyil, Cənubi Qafqazda lider mövqeyə yüksəlib. BDU nüfuzlu “Times Higher Education” beynəlxalq təşkilatının dünya universitetləri reytinqində ilk 600-lükdə yer alıb: “Biz bu uğura professor-müəllim heyəti və tələbələrimizlə birgə imza atmışıq. BDU bundan sonra da milli və beynəlxalq əmək bazarında rəqabətədavamlı, bilikli və bacarıqlı, bəşəri və milli-mənəvi dəyərlərə hörmətlə yanaşan, dövlətinə sadiqliyi və vətənpərvərliyi ilə seçilən yüksəkixtisaslı mütəxəssislər hazırlamağa əzmlə davam edəcək. BDU fəaliyyət göstərdiyi 106 il ərzində 200 mindən çox yüksəkixtisaslı mütəxəssis, o cümlədən bir çox xarici ölkələr üçün yüzlərlə peşəkar kadr yetişdirib. BDU məzunları ölkə həyatının müxtəlif sahələrində, o cümlədən dövlət quruculuğunda çox mürəkkəb, məsuliyyətli və eyni zamanda nəcib missiyanı şərəflə yerinə yetiriblər. BDU öz məzunları ilə həmişə fəxr edir, onların elmi, peşə və yaradıcı fəaliyyətindən qürur duyur”.

Sonra Universitet tələbələrinin ifasında BDU-nun himni səsləndirilib.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə bildirib ki, BDU yüz ildən artıqdır ki, insan kapitalının formalaşdırılması kimi müqəddəs missiyanın öhdəsindən böyük şərəf və qürurla gəlir. Bu illər ərzində Universitet yalnız elm, təhsil və tədqiqat müəssisəsi olmaqla kifayətlənməyib, eyni zamanda xalqımızın intellektual inkişafında, milli kimliyimizin formalaşmasında və dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynayıb: "Hazırda 25 mindən artıq tələbəsi olan BDU-nun ölkədə ali təhsilin flaqmanı kimi nüfuzunu qoruması, keyfiyyətli tədrisin təşkili və güclü sosial baza ilə təmin olunması həm də dövlət səviyyəsində elmə və təhsilə göstərilən diqqət və qayğının nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar çərçivəsində son illər ali təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilib, müasir infrastruktur yaradılıb və qabaqcıl texnologiyalar tədris prosesinə tətbiq olunub. 2025/2026-cı tədris ilindən etibarən rekord sayda — 75000 nəfər tələbə qəbul ediləcək. Bu da təhsilin inkişafına dövlətin verdiyi dəyərin göstəricisidir".

O qeyd edib ki, Azərbaycan ali təhsilinin uğurları artıq regional və beynəlxalq miqyasda da tanınır. "QS 2026" dünya universitetləri reytinqində ölkə tarixində ilk dəfə olaraq 6 Azərbaycan universiteti dünyanın ən yaxşı ali təhsil müəssisələri sırasında yer alıb. BDU isə bu reytinq cədvəlində 688-ci yerdə qərarlaşıb. Bu, həm Azərbaycanda, həm də ümumilikdə Cənubi Qafqazda ən yüksək göstəricidir: “Əziz məzunlar, qarşıda sizi çoxsaylı imkanlar gözləyir. Müasir dünyanın dəyişən çağırışları qarşısında yalnız bilik kifayət etmir. Dürüstlük, vətənpərvərlik, məsuliyyət və vətəndaşlıq şüuru da bir o qədər vacibdir. Ümid edirəm ki, siz Bakı Dövlət Universitetinin adını hər zaman uca tutacaq, onu uğurlarınızla təmsil edəcəksiniz".

Gənclər və idman naziri Fərid Qayıbov məzunları təbrik edərək, onların illər ərzində çəkdikləri zəhməti, əldə etdikləri bilikləri yüksək qiymətləndirib. O, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs edib. Gənclərə arzu və tövsiyələrini çatdıran nazir onların peşəkar mütəxəssis, cəmiyyətimiz və Vətənimiz üçün uğurlu insan olacaqlarına əminliyini ifadə edib, dövlətin həmişə gənclərin yanında olduğunu deyib.




BDU-nun sıx əməkdaşlıq etdiyi İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin təbrik videomüraciəti oxunub.

“Konstitusiya və Suverenlik İli”nə və Qarabağda qazanılan möhtəşəm Zəfərin 5 illik yubileyinə həsr olunmuş video nümayiş olunub.

Milli Məclisinin sədr müavini, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, BDU-nun Himayəçilər Şurasının üzvü, bp-nin Xəzər bölgəsində kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, “Şuşa Şəhəri Dövlət Qoruğu” İdarəsinin icraçı direktoru Tural Novruzov, Fizika fakültəsi Maddə quruluşu kafedrasının müdiri professor Sacidə Əbdülvahabova, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu, ABŞ-nin Çikaqo Universitetinin magistrantı Fidan Kərimli məzunları təbrik edib, onlara şəxsi və iş həyatlarında uğurlar arzulayıblar.

Türkiyənin İstanbul Texniki Universitetinin rektoru Hasan Mandal, İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baran, Çin Xalq Respublikasının Anhui Universitetinin Universitet Şurasının sədri Yu Baotao, Şimal-şərqi Neft Universitetinin prezidenti Dong Hongli, Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetinin rektoru Meiram Begentayev, Namanqan Dövlət Universitetinin rektoru Abduqəffar Qırğızbəyev, Pakistanın Milli Texnologiya Universitetinin (NUTECH) rektoru Moazzam Ejaz, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru Gülçöhrə Rixsiyeva, BDU-nun müxtəlif ölkələrdə çalışan tanınmış məzunları videomüraciətlərində Universitetin Azərbaycanın ictimai-siyasi həyatında önəmini qeyd edib, məzunlara təbriklərini çatdırıblar.

Tədbirdə Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən 34 məzuna sertifikat və BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi, tədbirin tərəfdaşları “Coca-Cola”, “Ülkər – Azərbaycan”, “AZƏRÇAY”, “Njoy cofee”, “G-SHOK Casio”, “Bayramlı Group”, “Sophiss”, “Berg”, “Pizza Mizza”, “Codelandia”, “Milla”, “Baku Book Center” tərəfindən hədiyyələr təqdim edilib.

Tədbir konsert proqramı ilə davam edib.



**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:**
30.06.2025
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08